www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 15-16 aprel 2017-ci il Şənbə № 78 (6692) Qiymәti 60 qəpik

**Xəbər**

**Bakıda dəhşətli qəza - Kəbirə Məmmədovanın klinikasının maşınında 3 nəfər kül oldu**

yazısı səh.14-də

**Gündəm**

## Azərbaycanın Avropa ilə viza rejiminin ləğvinə dair danışıqlar başlayır - rəsmi açıqlama



XİN rəsmisi deyib ki, Avropa Birliyi ölkələrinə gediş-gəlişin sərbəst olmasının müzakirə edildiyini bildirib; **sabiq xarici işlər naziri:** "Hər iki tərəf istəyir ki, viza rejimi qaldırılsın"

yazısı səh.6-da

## Azərbaycanda ictimai yerlərdə siqaret çəkmək qadağan edildi

yazısı səh.7-də

## İqtisadiyyatın Strateji Yol Xəritəsi: yolun harasındayıq?

yazısı səh.4-də

## "ABŞ beynəlxalq hüququ və BMT nizamnaməsini kobud şəkildə pozub" - Lavrov

yazısı səh.8-də

## Tramp Amerikada danışdı, dollar Azərbaycanda bahalaşdı...

yazısı səh.4-də

## "Xaricə mühacir kimi gedib, oturum ala bilməyib geri dönənlər nəzarətə götürülürlər" - vəkil

yazısı səh.10-da

## Bəşər Əsəd üzə çıxdı və "kimyəvi silahım yoxdur" dedi

yazısı səh.9-da

## Daha bir erməni Bakı Sülh Platformasına qoşuldu

yazısı səh.11-də

## Əhmədinejadın revanşı: onun siyasətə dönüşü dünya və regiona nə vəd edir?

yazısı səh.12-də

## Qarabağa dair "incə diplomatik oyun" - Moskva kompromisli sülhdən niyə qaçır?

yazısı səh.11-də

## Moskva ilə gizli oyun: "kartları" kim paylayır?

# ERMƏNİSTANDA "VARİS" ƏMƏLİYYATI - BAKI ÜÇÜN DƏ KRİTİK GÖZLƏNTİ

Prezident-baş nazir toqquşmasından kim qalib ayrılacaq? İşğalçı ölkədə hakimiyyətdaxili intriqalar qızışır; Rusiya yekun "dobro"nu "müharibə partiyası"nın ideoloqu Sərkisyana verəcək, yoxsa texnokratlara...



yazısı səh.8-də

## "Moskvadan xahiş etdim ki, nə olursa-olsun, bircə ÜAK ləğv olunmasın"

**Professor İlham Rəhimov Ümumrusiya Azərbaycanlıları Konqresi ilə bağlı "Yeni Müsavat"a detallı açıqlamalar verdi:** "Məhkəmə baxışından qabaq Moskvada olacağam, baxmayaraq ki, Konqresə heç bir aidiyyətim yoxdur, mən biganə qala bilmərəm"

yazısı səh. 5 və 6-da



*Vüqar Bayramov:*

**"TAP-la bağlı son qərarı İtaliya məhkəməsi verəcək"**

yazısı səh.9-da



*Əhməd Qəşəmoğlu:*

**"Bizim dayanıqlı, oturuşmuş ailə modelimiz, ənənələrimiz yoxdur"**

yazısı səh.13-də



*Ramin Hacılı:*

**"AXCP-nin ən yaxşı bacardığı iş şər-böhtan atmaqdır"**

yazısı səh.10-da

YENİ MÜSAVAT
N 78 (6692) 15 aprel 2017



# Prezident İlham Əliyev Azərbaycanın pravoslav xristian icmasını təbrik etdi

**Prezident İlham Əliyev Azərbaycanın pravoslav xristian icmasını təbrik edib. "Report"un məlumatına görə, təbrikdə deyilir:**

- Hörmətli həmvətənlər!

Sizi müqəddəs Pasxa bayramı münasibətilə ürəkdən təbrik edir, hər birinizə can sağlığı, xoşbəxtlik arzulayıram!

Yüz illər boyu Azərbaycanda yaşayan müxtəlif xalqlar arasında ənənəvi dostluq və qardaşlıq münasibətləri mövcud olmuş, ayrı-ayrı dinlər və etiqadlar qarşılıqlı hörmət və etimad şəraitində fəaliyyət göstərmişdir. Bu gün ölkəmiz dünyada nümunəvi tolerantlıq və multikulturalizm məkanı kimi tanınır. Biz bunu milli dövlətçiliyimizin böyük uğuru kimi qiymətləndirir, tarixi-mənəvi irsin və etnik-mədəni müxtəlifliyin qorunmasını, multikultural ənənələrə söykənən ictimai münasibətlərin təbliğini və təşviq edilməsini fəaliyyətimizin başlıca istiqamətlərindən biri hesab edirik.

Təsadüfi deyildir ki, bütün bəşəriyyət üçün xüsusi aktuallıq kəsb edən sivilizasiyalararası və dinlərarası dialoq problemlərinə həsr edilmiş mötəbər beynəlxalq tədbirlərin son illər bizim ölkəmizdə keçirilməsi artıq ənənə halını almışdır. Müasir mərhələdə milli azlıqların dil və mədəniyyətinin inkişafı, etnik-dini müxtəlifliyin, tarixi-mənəvi irsin qorunub saxlanması Azərbaycan dövlətinin xüsusi diqqət və qayğı ilə yanaşdığı məsələlərdəndir və biz bu sahədə səylərimizi gələcəkdə də davam etdirəcəyik.

Azərbaycan tarixən olduğu kimi, bu gün də dilindən, dinindən, milli mənsubiyyətindən asılı olmayaraq, burada yaşayan hər kəs üçün doğma vətəndir. Ümidvaram ki, xristian həmvətənlərimiz müstəqil Azərbaycan Respublikasının qarşısında duran mühüm vəzifələrin yerinə yetirilməsi, cəmiyyətdə vətəndaş həmrəyliyinin, ictimai-siyasi sabitliyin bərqərar olunması yolunda bundan sonra da əllərindən gələni əsirgəməyəcək, xalqımızın xoşbəxt gələcəyi naminə öz səylərini daha da artıracaqlar.

Yeniliyin, əmin-amanlığın, həmrəylik və mərhəmət duyğularının rəmzi olan Pasxa bayramı hər il Azərbaycanda təntənə ilə qeyd edilir. Bu əziz gündə sizə xoş bayram ovqatı, ailələrinizə sevinc və rifah arzulayıram.

Bayramınız mübarək olsun!"



# Azyaşlını elektrik cərəyanı vurub öldürdü

**Yardımlıda azyaşlı faciəli şəkildə ölüb. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən musavat.com-a verilən məlumata görə, aprelin 13-də Yardımlı rayonunun Xanqulaq kəndində kənd sakini 8 yaşlı İsmayıl Sultanov elektrik cərəyanı vurması nəticəsində ölüb.**

Faktla bağlı araşdırma aparılır.


"Qaya Mətbuat Yayımı" MMC!

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir:**
**Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.


# Hacı Qamət "Sovetski"dəki məscid qalmaqalı ilə bağlı səbrli olmağa çağırdı

**Bakının "Sovetski" kimi tanınan ərazisində yerləşən Hacı Cavad məscidinin sökülməsinə cəhd edilməsi, həmin ərazidə yaşayan şiələrin kəskin etirazına səbəb oldu. Prezidentin də işə qarışması ilə məscidin söküntüsü dayandırıldı. Belə ki, Azərbaycan Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov bildirib ki, prezident İlham Əliyev məscidinin sökülməsi ilə bağlı yaranmış vəziyyətdən narahat olub:**

"Dövlət başçısı narazılıq edən inanclı insanların reaksiyasını nəzərə alaraq məscidin söküntüsünün dayandırılması, məsələnin hərtərəfli araşdırılması, binanın texniki vəziyyətinin tam obyektiv qiymətləndirilməsi və müvafiq təkliflərin təqdim olunması məqsədilə xüsusi komissiyanın yaradılması barədə tapşırıq verib".

**Nəticədə məscidin söküntüsü dayandırıldı.**




Məsələ Milli Məclisin plenar iclasında da müzakirə edildi və fikir bildirən deputatlar prosesə fərqli yöndən yanaşaraq söylədilər ki, məscidlərin casus yuvasına çevrilməsinə imkan verməyəcəklər.

Baş verən hadisələrlə bağlı uzun müddətdir mətbuatdan kənarda qalan Azərbaycanda sələfilərin lideri, "Əbu-Bəkr" məscidinin imamı Hacı Qamət Süleymanov "Yeni Müsavat"a bildirib ki, belə məqamda insanlar səbirli olmalıdırlar:

"Təbii ki, biz məscidlərin sökülməsinin əleyhinəyik. Ancaq hökumət qərar verib ki, orada yol çəkiləcək və ya hansısa bərpa işləri görüləcək, bu səbəbdən də məscidi sökürlər. Burada şəriət baxımından heç bir problem yoxdur. Əgər dövlət orada nə isə iş görürsə orada dini baxımdan problem yoxdur. İndiki vəziyyətə görə bu cür məsələlərdən bəzi qüvvələr istifadə edə bilərlər. Ancaq hər halda diqqətli olmaq lazımdır. Əgər doğrudan da sökülməsinə ehtiyac varsa, bunun sökülməsində bir şey də yoxdur axı. İnsanlara müraciətim budur ki, səbirli olmaq lazımdır. Məzhəblə götürsək, şiələrin namaz qılması üçün şəhərdə xeyli sayda məscid var. Elə həmin ərazinin özündə də kifayət qədər məscidlər var. Prezident də qərar verib ki, məsələ yoxlanılsın".

**Q.Süleymanov "Əbu-Bəkr" məscidinin hazırkı vəziyyəti ilə bağlı da fikir söyləyib:**

"Əbu-Bəkr" məscidində vəziyyət əvvəl necə idisə, indi də o cür qalıb. Məhdudiyyət davam edir. Cümə namazında çox az sayda adam olur. Başqa namazlarda isə demək olar ki, məscidə heç kim gəlmir. Azərbaycandakı dini vəziyyətlə bağlı da bir söz deyim ki, hələ ki, savadsızlıqdır. Yəni dini təlimlər mövcud deyil. Maarifləndirmə işi çox zəif gedir. Bunun üçün ayrıca verilişlər etmək, qəzetlər çap etmək lazımdır ki, cavanlar başqa ölkələrə getməsinlər. Xüsusilə də müəyyən radikal qruplarda din adından istifadə etməsinlər. Təbii ki, bütün bunların başında maarifləndirmə işlərinin daha yaxşı təşkil olunması durur. Biz sələfilər olaraq mitinqin, dövlətə qarşı istənilən çıxışın əleyhinəyik".

❑ **Əli RAİS**

# Azərbaycan aviaşirkəti "Boeing"dən 1 mlrd. dollarlıq 10 sərnişin təyyarəsi alır

**Azərbaycanın "Silk Way Airlines" aviaşirkəti və ABŞ-ın "Boeing" aerokosmik korporasiyası 10 ədəd "Boeing-737 MAX" sərnişin təyyarəsinin alınmasına dair müqavilə imzalanıb. Bu barədə "APA-Economics"ə "Silk Way Holding"dən məlumat verilib.**

Müqavilə "Silk Way Holding"in prezidenti Zaur Axundov və "Boeing" şirkətinin baş vitse-prezidenti Marti Bentrott tərəfindən bu gün Bakıda imzalanıb.

İmzalama mərasimində AZAL-ın prezidenti Cahangir Əsgərov və ABŞ-ın Azərbaycandakı səfiri Robert Sekuta iştirak edib.



Müqavilənin ümumi məbləği təxminən 1 mlrd. dollar təşkil edir.

ABŞ-ın İxrac-idxal bankı (Ex-Imbank) ilə ilkin müzakirələr əsasında Azərbaycanın mülki aviasiyası tarixində ilk dəfə olaraq hava gəmilərinin alınmasına dair sazişin maliyyələşdirilməsi dövlət zəmanətləri olmadan həyata keçiriləcək.

Qeyd edək ki, Azərbaycana müasir "Boeing-737 MAX" hava gəmilərinin gətirilməsinə dair razılaşma ötən ilin yayında Böyük Britaniyada "Farnborough Airshow - 2016" Beynəlxalq aerokosmik salonu çərçivəsində əldə edilib.

İlk iki yeni nəsil təyyarə Azərbaycana 2018-ci ilin sonuna kimi, qalanları isə 2020-ci ilin sonuna kimi gətiriləcək.

"Silk Way Holding"in prezidenti Zaur Axundov jurnalistlərə bildirib ki, bu müqavilənin imzalanması ilə Azərbaycanın mülki aviasiyası öz inkişafının yeni mərhələsinə qədəm qoyur: "Şirkətimiz "Boeing" istehsalı olan 10 ədəd yeni və müasir təyyarə alacaq. Biz bu təyyarələri əməliyyat və maliyyə lizinqi əsasında digər aviaşirkətlərə verməyi planlaşdırırıq. Bu layihə çox yaxşı perspektivə malikdir".

Səfir Robert Sekutanın sözlərinə görə, imzalanmış sənəd ABŞ və Azərbaycan arasında çox sıx münasibətlərin göstəricisidir: "Boeing" korporasiyası tərəfindən istehsal olunan təyyarələr öz etibarlılığı ilə fərqlənir. Bu təyyarələr ilə həm sərnişin daşımaları, həm də yük daşımaları təhlükəsiz şəkildə həyata keçirilir. Biz Azərbaycan şirkəti ilə bu sənədin imzalanmasında çox maraqlıyıq və əldə olunan razılaşmadan çox məmnunuq".

**O, həmçinin ölkəsinin Azərbaycanda yaradılan aşağı büdcəli "Buta Airways" şirkəti ilə əməkdaşlığa hazır olduğunu bildirib.**

"Boeing" şirkətinin baş vitse-prezidenti Marti Bentrottun sözlərinə görə, Azərbaycanın aldığı müasir təyyarələr 189 sərnişin üçün nəzərdə tutulub. "Bu təyyarələr çox səmərəli və etibarlıdır. İmzalanan müqaviləni ABŞ və Azərbaycan arasında çox mühüm ticarət müqaviləsi hesab edirik", - deyə o bildirib.

"737 MAX" təyyarələrinin modernləşdirilmiş seriyası CFM International istehsalı yeni LEAP-1B mühərrikləri ilə təchiz olunub ki, bu da ən yanacaq-səmərəli müasir təyyarələr ilə müqayisədə yanacaq sərfini 13% azaltmağa imkan verir. Konstruksiyanın son təkmilləşdirməsi, o cümlədən yeni "Advanced Technology" vinqletin quraşdırılması müqaviməti azaldır ki, bu da "737 MAX" təyyarəsinin xüsusilə uzaq məsafələrə uçuşları zamanı İstismar xarakteristikalarının daha da yaxşılaşmasına kömək edir. Hazırda, təyyarələr Sietldə (Vaşinqton ştatı, ABŞ) test sınaqlarından keçirilir.

# Jurnalist Məlahət Qüsuri əməliyyat olunacaq

Əvəz Zeynallı: "Mədəaltı vəzdə kəskin iltihab artıq götürülüb normaya düşəndə ödü əməliyyat edib götürmək olar"

**Tanınmış jurnalist Məlahət Qüsurinin vəziyyəti normallaşıb və o artıq palatadadır. Aparılan qan təhlillərindən sonra jurnalist yenidən əməliyyat olunacaq. Bu barədə onun həyat yoldaşı "Xural" qəzetinin baş redaktoru Əvəz Zeynallı "Yeni Müsavat"a bildirib.**

Ə.Zeynallı hazırda Musa Nağıyev adına Təcili Tibbi Yardım xəstəxanasında müalicə alan M.Qüsuri-Zeynallıya mədəaltı vəzinin kəskin iltihabı və öd kisəsində daş diaqnozu qoyulduğunu bildirdi: "Nisbətən vəziyyəti yaxşılaşıb. Artıq palatadadır. Həkimlərlə məsləhətləşirik. Əgər həkim icazə versə, yenidən əməliyyat olunmalıdır. Məlahət xanımın öd kisəsindən mədəaltı vəzə gələn kanala öd kisəsindən daş düşüb və mədəaltı vəz şişib. Mədə altı vəz partlamaq dərəcəsinə gəlib çatmışdı. 2-3 gündür yalnız mədəaltı vəzi sakitləşdirirlər. Mədəaltı vəzdə kəskin iltihab artıq götürülüb normaya düşəndə ödü əməliyyat edib götürmək olar. Mədəaltı vəzdə problem varsa, xəstəyə bıçaq vurmaq olmaz. 2-3 gündür mədəaltı vəzi sakitləşdirmək prosesi gedir. Qan analizlərinin nəticəsindən sonra vəziyyəti normal olsa, əməliyyata alınacaq".

❑ **Günel MANAFLI**

# "Bandotdel" hüquq-mühafizə orqanlarının "əməkdaşını" tutdu

**Respublikanın daxili işlər orqanları dələduzluq yolu ilə vətəndaşları aldadan və bununla da zərərçəkənlərin külli miqdarda pullarını mənimsəyən şəxslərə qarşı növbəti əməliyyat-axtarış tədbiri həyata keçirib.**

Virtualaz.org DİN-ə istinadən bildirir ki, vətəndaş Asif Əsədullazadə Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinə (BMCMİ) müraciət edərək özünü hüquq-mühafizə orqanlarının əməkdaşı kimi təqdim edən Rövşən adlı şəxs tərəfindən dələduzluq yolu ilə aldadılaraq külli miqdarda pulunun mənimsənildiyini bildirib.

Keçirilən əməliyyat tədbirləri nəticəsində həmin dələduzluq əməlini törətməkdə şübhəli bilinən, əvvəllər məhkum edilmiş Sabirabad rayon sakini Rövşən Şükürov saxlanılıb. Onun yaşadığı evdən hüquq-mühafizə orqanlarına məxsus xüsusi geyim forması və iş üçün əhəmiyyət kəsb edən digər maddi sübutlar aşkar edilərək götürülüb.

Qeyd edilən faktla bağlı Baş İdarənin İstintaq Şöbəsində Cinayət Məcəlləsinin müvafiq maddəsi ilə cinayət işi başlanılıb, araşdırmalar aparılır.

Polis əməkdaşları dələduzluq etməkdə şübhəli bilinən Rövşən Şükürovun digər analoji cinayətlərdə iştirak etdiyini də istisna etmir. Onun əməllərindən zərərçəkən başqa vətəndaşlar varsa, bu barədə Daxili işlər Nazirliyinin "102" Zəng Mərkəzinə və ya BMCMİ-nə müraciət edə bilərlər.

**Prezident, Ali Baş Komandan İlham Əliyevin təsdiq etdiyi plana əsasən aprel ayının 16-dan qoşunların döyüşə hazırolma qabiliyyəti, qüvvə və vasitələrin idarə olunmasının təşkili, onların qarşılıqlı fəaliyyətinin yoxlanılması məqsədilə döyüş şəraitinə uyğunlaşdırılmış vəziyyətdə genişmiqyaslı təlimlər keçiriləcək.**



# 16 apreldə başlanacaq hərbi təlimlərin hədəfi

## Hərbi ekspertdən maraqlı açıqlamalar

Bu barədə Müdafiə Nazirliyinin mətbuat xidməti məlumat yayıb.

Təlimlərə 30 min nəfərədək şəxsi heyət, 250-dən artıq tank və zirehli texnika, 200-dək müxtəlif çaplı raket və artilleriya qurğusu, reaktiv yaylım atəş sistemi və minaatan, 25 ədəd müxtəlif təyinatlı döyüş aviasiyası, eləcə də yeni növ radioelektron kəşfiyyat vasitələri və pilotsuz uçuş aparatları cəlb olunacaq. Təlimlər zamanı çətin relyef şəraitində müasir ümumqoşun döyüşü və əməliyyatların keçirilməsinin müxtəlif üsulları məşq etdiriləcək.

Təlimlər aprelin 21-dək davam edəcək.

Qeyd edək ki, bundan öncə ən genişmiqyaslı hərbi təlim ötən il 12-18 noyabr tarixində keçirilib. Həmin hərbi təlimlərə 60 minədək şəxsi heyət, 50-dən çox təyyarə və helikopter, 150-dən artıq tank və zirehli texnika, eləcə də raket və artilleriya qoşunlarının 700-dək qurğu və sistemi cəlb olunub. Azərbaycan ordusunun keçirdiyi təlimlər tarixində ən irimiqyaslısı məhz həmin hərbi təlimlər sayılırdı.

Aprelin 16-da başlanacaq hərbi təlimlər də miqyasına görə fərqlənir.

Bu barədə danışan hərbi ekspert, istefada olan polkovnik-leytenant Üzeyir Cəfərov bildirdi ki, silahlı qüvvələrimizin bu təlimlər 2017-ci ilin təqvim planına salınmış təlimlərdən biridir.

Ü.Cəfərovun sözlərinə görə, bu qədər geniş kontingentin, çoxlu sayda texnikanın, ehtiyatda olan hərbçilərin də cəlb edildiyi hərbi təlimlər şübhəsiz ki, işğalçı Ermənistan üçün bir xəbərdarlıq da sayılmalıdır: "Bu qədər iri miqyaslı hərbi təlimlərin keçirilməsi göstərir ki, bütün bunlar çox ciddi düşünülmüş və bir-biri ilə bağlı olan planın tərkib hissəsidir. Azərbaycan ordusunun başladığı iri miqyaslı təlimlər, orada istifadə olunan hərbi texnika, silahlar faktiki olaraq dayanmış sülh danışıqlarının ciddi şəkildə bərpa olunmasına da təkan verə bilər. Həm ötən ilin noyabrında Ermənistan və vasitəçi dövlətlər daha ciddi şəkildə gördü ki, Azərbaycan silahlı qüvvələrinin kifayət qədər gücü var və hər an hərbi əməliyyatlara başlamaq imkanındadır, həm də 16 apreldə başlanacaq hərbi təlimlər düşmənə və onun havadarlarına bir daha göstərəcək ki, Azərbaycan ordusu erməni ordusu üzərində qələbə çalmaq üçün hər cür imkana sahibdir. Bu, ATƏT-in Minsk qrupu həmsədrlərinə də bir mesaj olacaq ki, əgər işğal olunmuş torpaqların azad olunması üçün yaxın vaxtlarda diplomatik istiqamətdə irəliləyiş olmayacaqsa, hərbi yola əl atılması üçün bütün imkanlara sahibik. Biz lazım olsa, bundan bir neçə dəfə artıq sayda şəxsi heyəti, silah və hərbi texnikanı cəlb eləmək imkanındayıq".

**Hərbi ekspert onu da dedi ki, hərbi təlimlər həm də işğalçı Ermənistanın bugünlərdə Azərbaycan ərazilərində keçirdiyi hərbi təlimlərə ciddi cavab sayıla bilər.**

❑ **Etibar SEYİDAĞA**

# "Hər kəsə məlumdur ki, MTN-də nə işlər görürdünüz, nə edirdiz"

## Tanınmış iş adamı MTN polkovnikinin məhkəməsində ifadə verdi; "Qardaşımın və qaynımın azadlığa buraxılması üçün 4 milyon istədi"

**Bakı Hərbi Məhkəməsində ləğv edilmiş Milli Təhlükəsizlik Nazirliyi İstintaq Baş İdarəsi 2-ci istintaq şöbəsinin rəisi Vüsal Ələkbərovun cinayət işi üzrə hakim Siyavuş Hacıyevin sədrliyi məhkəmə prosesi keçirilib.**

Prosesdə iş adamı Arzu Kazımov şahid qismində ifadə verib. O, bu iş üzrə zərərçəkmişlər Nizami Kazımovun qardaşı, Hüseyn Səfərovun isə bacısının həyat yoldaşıdır.

A.Kazımov ləğv edilmiş ABU-nun rektoru Elşad Abdullayev video yayandan sonra həbs edilmişdi. Daha sonra Ali Məhkəmənin qərarı ilə sərbəst buraxılıb. Arzu Kazımov məhkəmədə Vüsal Kazımovun vəsatəti əsasında əlavə şahid qismində dindirilib.

O ifadəsində bildirib ki, tarixini xatırlamadığı bir gün MTN-dən ona zəng gəlib və nazirliyə çağırılıb: "Zəng edən müstəntiq bildirdi ki, məni Vüsal Ələkbərov MTN-ə çağırır. Mən MTN-ə gəlməyəcəyimi bildirdim. Bir qədər sonra həmin müstəntiq yenə də zəng vurdu və bildirdi ki, Vüsal Ələkbərov ilə əlaqə saxlayım. Bundan sonra Vüsal Ələkbərovla əlaqə saxladım.

Həmin gün Vüsal ilə MTN-nin arxa hissəsində görüşdük. Mənimlə qardaşım və qaynımla bağlı söhbət etdi. Onların həbsdən azad edilməsi üçün hər biri tərəfindən 2 milyon manat ödənilməsini istədi. Bildirdim ki, bizim qohumlarımızın bu qədər pulu yoxdur. Bundan sonra Vüsal bir söz demədi və getdi. Bu söhbətin üstündən iki ay keçdi, fikirləşdim ki, yumuşalarlar, onları sərbəst buraxarlar. Nə cinayət törədiblər ki, bu qədər pul tələb edirlər. Amma onları sərbəst buraxmadılar".

**Şahid deyib ki, bundan sonra sabiq nazir Eldar Mahmudovun köməkçisinə zəng edib:** "Məcbur qalaraq Eldar müəllimin köməkçisinə zəng etdim, nazirlə görüşmək istədiyimi bildirdim. Bundan sonra nazir məni qəbul etdi. Ona dedim ki, qardaşımı və qaynımı tutublar, heç bir günahları yoxdur, cavabı bu oldu ki, onların işləri araşdırılacaq, lazımı köməklik göstəriləcək".

**A.Kazımov qeyd edib ki, bundan sonra MTN-nin baş istintaq idarəsinin rəisi Mövlam Şıxəliyevlə görüşüb:** "Xidməti otağında qardaşımın və qaynımın həbsdən azad edilməsi üçün tələb olunan məbləğin verilməsini tələb etdi. Ona da dedim ki, istənilən pulu verən deyilik. Həmin vaxt Vüsal Ələkbərov da orada idi. Sonra mən getdim. Qohumlarıma dedim ki, istənilən pulu verməyin, qoy iş kəssinlər, əgər pulu versəniz, mən sizi tanımıram. Amma onlara içəridə hansı təzyiqi göstərdilərsə, tələb olunan məbləği verdilər. Bu gün də hər ikisi banklara pul ödəyirlər".

**Həbsdə olan MTN zabiti Vüsal Ələkbərov şahidin ifadəsinə arayış verib:** "Mən Nizami Kazımovdan və Hüseyn Səfərovdan pul tələb etməmişəm. Zərərçəkmişlərə dəymiş ziyan ödənildən sonra hər ikisi sərbəst buraxılıb".



**Arzu Kazımov isə Vüsal Ələkbərovun düzgün danışmadığını söyləyib:** "Görüş zamanı Vüsal Ələkbərova dedim ki, ikisinin həbsdən azad olunması üçün 500-600 min düzəltməyə bəlkə gücümüz çatar. Bizim iki milyon dollara gücümüz çatmır".

**Bu zaman isə Vüsal Ələkbərov şahidin yalan danışdığını deyib:** "Şahid həbsxana həyatı yaşayıb, əziyyət görmüş adamdır. Fikirləşirdim ki, burada düzünü danışar. Həmin vaxt Mövlam müəllim ona deyib ki, zərərçəkmişlərə dəymiş ziyanı ödəyin, həm Nizami Kazımovun, həm də Hüseyn Səfərovun cəza məsələsinə baxıla bilər".

**Bu zaman Arzu Kazımov Vüsal Ələkbərovu və digər vəzifəli MTN əməkdaşlarının bu işdə əlləri olduğunu söyləyib:** "Burada hansı ədalətdən danışmaq olar?.. Hər kəsə məlumdur ki, MTN-də nə işlər görürdünüz, nə edirdiz"...

**Zərərçəkmiş Nizami Kazımov deyib ki, qardaşı Arzu Kazımovun pul sövdələşməsinə girməsini MTN-də istəməyiblər**: "Vüsal Ələkbərov bildirdi ki, flankəslər, o cümlədən Tahir (Çanaqqala restoranını sahibi və Nizami Kazımovun qudasıdır - red.) də gəlsin pul danışıqlarına. Mən də vəkilim ilə məlumat göndərdim ki, Arzunu bu işə qatmayın, Tahir görüşlərə gəlsin".

**Vüsal Ələkbərov zərərçəkmiş Nizami Kazımovu da yalan danışmaqda ittiham edib:** "Bunlar yalan danışırlar. Zərərçəkmişlərə dəymiş ziyan var idi, zərərçəkmişlər aksiya keçirirdilər. MTN rəhbərliyi və Baş Prokurorluq başımızı yarırdı ki, zərərçəkmişlərə dəymiş ziyan ödənilsin".

Daha sonra MTN-nin baş istintaq idarəsində, hazırda isə DTX-da müstəntiq işləyən Rövşən Hüseynov ifadə verib.

Ona "Texnikabank" ASC-nin sədri Etibar Əliyev və digərlərinin istintaqının aparılması ilə bağlı suallar verilib. O qeyd edib ki, həmin iş üzrə şahid qismində keçən və hazırkı cinayət işində zərərçəkmiş şəxs qismində tanınmış iş adamı Akif Qurbanovu tanımayıb, onunla əlaqə saxlamasını və MTN-ə çağırılmasını xatırlamır.

Vüsal Ələkbərov qeyd edib ki, rəhbərlik etdiyi istintaq idarəsinin üç müstəntiqi hazırda Bakı Ağır Cinayətlər Məhkəməsinin hakimidir. Bir çox müstəntiq tələbələr yetişdirdiyini söyləyən Vüsal Ələkbərov qeyd edib ki, apardığı səs-küylü cinayət işləri ilə bağlı sənədləri məhkəməyə təqdim edəcək: "Mövlam Şıxəliyev və Nadir Mustafyev polisdən, Təhsin Ağayev isə Bakı Hərbi Məhkəməsində katib vəzifəsindən MTN-ə gəliblər. Bundan başqa bütün işçilər mənim yetirməm olublar. Bu şahidin özünü də mən yetişdirmişəm, mənim rəhbərlik etdiyim şöbənin işçisi olub".

**Növbəti məhkəmə prosesi aprelin 28-nə təyin edilib.**

❑ **İlkin MURADOV**

# Dünyanın ən nəşəxor ölkəsi...



**Samir SARI**

**Çox oxumuş, çox gəzmiş və çoxbilmiş adamların dediyinə görə, dünyada 4 biznes növü var ki, ona girişəndə və işin uğurlu alınanda sürətlə milyarder ola bilərsən.**

Bunlardan biri beynəlxalq miqyaslı qumar şəbəkəsi təşkil etməkdir, biri beynəlxalq sferada silah qaçaqçılığı ilə məşğul olmaqdır, biri beynəlxalq səviyyəli fühuş industriyası yaratmaqdır, biri də narkotik maddələrin qanunsuz dövriyyəsini düzüb-qoşmaqdır.

Göründüyü kimi, bunların dördü də beynəlxalq cinayətkarlıqla bağlı bizneslərdir. Yəni məhəllədə dost-tanışına dala-qabağa baxa-baxa "iki baş şey" sırıyan adam nəinki özünü, heç sahə müvəkkilini də dolandıra bilməz. Bu işlə məşğulsansa gərək 3 ton maye heroini sərhəddən keçirəsən və gürcü gömrüyündə tutulmayasan. (Yeri gəlmişkən, bir neçə il öncə bizdən keçən, amma Gürcüstanda tutulan 2 ton 950 litr maye heroinin axırı necə oldu, görəsən?).

Yuxarıda adı çəkilən "yüksək mənfəətli biznes sahələri"ndən ikisi - qumarxana və silah alveri əksər ölkələrdə artıq çoxdan leqallaşıb, bu işə dövlətlər özləri məşğul olur. Partapart kazinolar şəhəri salan, bir-birilə vuruşan ölkələrə eyni zamanda silah satan dövlətlər var. Onlara rəqib olmaq istəyənlər öz silahlarını bazara çıxarır, beynəlxalq sərgilərdə eyzən "baxın, bizim silahımızla daha çox adam öldürə bilərsiniz",- deyə mallarını reklam edirlər.

Fühuş industriyası da bir çox ölkələrdə çoxdan leqallaşdırılıb, bəzi ölkələrdə isə hökumət adamları gözləri ilə görsələr də, göz yumur, müvafiq tənqidləri süysünə ("süysün" sözünün sinonimi də var - "peysər") verirlər. Hamı bizim kimi mentalitet dərdi çəkmir, hostel, motel söhbəti eləmir. Elə ölkələr də var, sırf bu peşəylə dolanır. Məsələn, Tailand. Əgər vaxtında qabağı alınmasa regionumuzdakı bəzi ölkələr artıq o istiqamətə gedirdi.

Nəhayət, gəldik girdik çətənə plantasiyasına. Ölkələr bir-birinin ardınca çətənə məhsulunu, yəni xaş-xaşı, anaşanı, el dilində desək, nəşəni leqallaşdırırlar. Əfqanıstanda çoxdan əksər fermerlər çətənəni pambıq kimi əkir, sovet dövründə bizim pambıqçıların etdiyi kimi kamera qarşısında dayanıb məhsuldarlıq söhbəti ("bu il hər hektardan 20 sentner məhsul götürəcəyik"-filan) edirlər.

Deyək ki, Əfqanıstandır, Kolumbiyadır, Boliviyadır, Hondurasdır, bunların dolanışığı çətənədəndir, amma elə ölkələr də var, istehsalçı deyillər, istehlakçıdırlar, indi onlar anaşa qəbulunu qanuna salırlar. Yəni gündəlik istehlak miqdarı qədər nəşə çəkə bilərsən.

Məsələn, Kanada hökuməti bəyan edib ki, gələn ilin iyununa qədər "çətənənin qeyri-müntəzəm istehlakını" tənzimləyən qanun qəbul olunacaq.

Çünki bu, sosial sifarişdir, xalq nəşə çəkmək istəyir. Heç demə, Əfqanıstanın adı çıxıb, dünyanın ən nəşəxor ölkəsi Kanada imiş. Orda "Ganja" (marixuana) adlı şəhər olmasa da, kanadalılar "Gəncə "Kazbek"i"nin dadını yaxşı bilirmişlər.

Qəzetlər yazır ki, satışa əvvəlcə qurudulmuş və yaşıl çətənə, daha sonra çətənə yağı buraxılacaq, bunun ardınca isə çətənəli qidalara icazə veriləcək. Sonradan kanadalılar üstlərində 30 qramadək quru çətənə gəzdirə biləcəklər. Yeniyetmələr də nəzərə alınacaq, yaşı 18-dən aşağı olanların norması 5 qram olacaq. Bas, Castin, bas.

Beləliklə, Kanada marixuana alverindən ildə 6-7 milyard dollar pul qazanmağı düşünür.

Bu cür xəbərləri oxuyanda yəqin ki, bizim nəşəxorlar da düşünürlər ki, keşkə bizdə də elə olaydı, nəşəni leqallaşdıraydılar, canları təqib-təzyiqdən qurtulaydı.

Bir neçə səbəbdən bu layihə bizdə keçməz. Birincisi, nəşəxorlarla mübarizə dolanışıqlı işdir, bu mübarizədə çoxlu pul qazananlar var. Çətənə leqallaşsa o pul dövlət büdcəsinə gedər, şəxsi ciblərə getməz.

İkincisi, elə bir şey olsa, bu ölkədə siqaret çəkənlərin yarısı qədər də nəşəxorlar ordusu əmələ gələr. Hətta ola bilər ki, işbazlar nəşəli siqaret istehsalına başlayar, dövriyyəni kəllə-çarxa çıxararlar. İki il keçməmiş Kanada, Kolumbiya, Əfqanıstan yanımızda yalan olar.

**Şəxsi düşüncəmə görə, nəinki marixuananı leqallaşdırmaq lazımdır, hətta siqareti də qadağan eləmək gərəkdir. Bir də görürsən, səhərin gözü açılmamış nə qədər adam sümürə-sümürə, tüstüləyə-tüstüləyə gedir.**

YENİ MÜSAVAT
N 78 (6692) 15 aprel 2017

**Xəbər verdiyimiz kimi, ABŞ prezidenti Donald Tramp dolların ucuzlaşdırılmasının vacibliyi haqqında danışıb. Onun bu açıqlaması dolları iki həftəlik minimumadək ucuzlaşdırıb.**

# Tramp Amerikada danışdı, dollar Azərbaycanda bahalaşdı...

## Ölkəmiz yenə dünyanın əksinə getdi; dünya bazarında dollar ucuzlaşdı, bizdə isə bahalaşdı

ABŞ prezidenti "Wall Street Journal" nəşrinə müsahibəsində deyib ki, ABŞ dolları həddən artıq güclənməkdədir və bu proses nəticə etibarilə iqtisadiyyatımıza ciddi zərər verə bilər.

**Trampın sözlərinə görə, Federal Ehtiyat Sistemi (FES) tərəfindən uçot dərəcəsinin endirilməsi daha məqbuldur**. “Hesab edirəm ki, dollar həddən artıq güclənməkdədir. Burada mənim günahım da var, çünki insanlar mənə etimad göstərir. Lakin bir şeyi bilməliyik ki, bu proses iqtisadiyyatımıza ciddi zərər verir. Güclü dollarla rəqabət aparmaq çox çətindir. Çünki başqa ölkələr öz valyutalarını devalvasiyaya uğradır”, - deyə o bildirib.

Ölkə başçısının açıqlamaları dolları ucuzlaşdırıb, eyni zamanda ABŞ səhmlərinin və dövlət istiqrazlarının gəlirliliyinə mənfi təsir edib. Belə ki, dolların indeksi 0,7% zəifləyərək 100,040 bənd səviyyəsinə enib ki, bu da iki həftəlik minimumdur.



Azərbaycanda isə dünya bazarının əksinə olaraq dollar bahalaşıb. Səbəb isə odur ki, hazırda dollar almaq istəyənlər bazara dollar çıxaranlardan xeyli çoxdur. Son iki gündə “qara bazar”da dollar sürətlə dəyər qazanmaqda davam edir. Fins.az-ın fərdi qaydada valyuta satışı ilə məşğul olan şəxslərdən əldə etdiyi məlumatlara əsasən, bu gün səhər saatlarında dolların alışı 1.65 manatdan 1.68 manata, satışı isə 1.67 manatdan 1.69 manata qədər yüksəlib. Bu isə 2 gündə dolların 3,7%-dək bahalaşması deməkdir.

“Marja”-nın verdiyi xəbərdə isə deyilir ki, aprelin 13-ü ilə müqayisədə 14-də bir çox banklar alış-satış qiymətlərini artırıblar. “Ata Bank” alışı 1.6550 manatdan 1.66 manata, “Muğan Bank” alışı 1.64 manatdan 1.66 manata, satışı 1.71 manatdan 1.72 manata, “NBC Bank” alışı 1.65 manatdan 1.67 manata, satışı 1.71 manatdan 1.72 manata, “Bank BTB” alışı 1.64 manatdan 1.67 manata, satışı 1.7150 manatdan 1.7180 manata, “Ziraat Bank” Azərbaycan alışı 1.6350 manatdan 1.6750 manata, satışı isə 1.71 manatdan 1.7150 manata, “Dəmir Bank” alışı 1.63 manatdan 1.66 manata qaldırıb.

Qeyd edək ki, Mərkəzi Bankda keçirilən son iki hərracda manat dollar qarşısında cüzi də olsa möhkəmlənsə də, banklarda dollar bahalaşır. Bu həftənin çərşənbə axşamı günü Dolların alış qiyməti 1.60 manatadək, satış qiyməti isə 1.64 manatadək düşmüşdü.

Mövcud tendensiyanı dəyərləndirən **iqtisadçı-ekspert Qubad İbadoğlu** sözlərinə görə, ölkəmizdə dolların bahalaşması onu göstərir ki, ABŞ-da FES-in, ABŞ hökumətinin siyasəti ilə Azərbaycandakı vəziyyət arasında əlaqə yoxdur: “Ona görə ki, Azərbaycan manatının məzənnəsinin tənzimlənməsi iqtisadi faktorlarla həyata keçirilmir. Bəzən dünya valyuta bazarlarında dollar möhkəmləndiyi halda Azərbaycanda ucuzlaşır, bəzən də əksinə, orada dollar ucuzlaşanda, bizdə bahalaşdırırlar. Yəni bu baş verənləri heç bir qanunauyğunluqla izah etmək olmur. Düzdür, biz demirik ki, birbaşa təsiri olmalıdır. Ancaq ən azından psixoloji təsirləri olmalıdır, dünya bazarındakı tendensiya nəzərə alınmalıdır. Dünya birjalarının konyukturasında gedən proseslər təhlil olunmalıdır. Təəssüf ki, Azərbaycanın həm məzənnə siyasətində, həm monetar siyasətində dünya bazarındakı tendensiya diqqətdən kənarda qoyulur”.

**Trampın bu açıqlamasını dəyərləndirən iqtisadçı qeyd etdi ki, indiki halda ABŞ prezidentinin bu bəyanatı da başa düşüləndir:** “Çünki ABŞ-ın Federal Ehtiyatlar Sisteminin uçot dərəcələrini qaldırması bütövlükdə faiz dərəcələrinin yüksəlməsinə gətirib çıxarır. Bu da dolların bahalaşmasını şərtləndirir. Bu baxımdan da ABŞ-a sərmayə cəlb olunması, bu ölkənin iqtisadiyyatında inflyasiya prosesinin tənzimlənməsində müəyyən dəyişikliklər baş verir. Bu dəyişikliklər bəzən narahatlıq doğurur. O baxımdan bu bəyanat siyasi bəyanatdır. Çünki FES müstəqil bir təşkilatdır. Bu qurum nə ABŞ prezidentinin, nə Konqresin, nə də ki, nümayəndələr palatasının apardığı bir təşkilat deyil. FES öz qərarlarında müstəqildir və mən düşünmürəm ki, Trampın bu çağırışı onların qərarlarına təsir göstərəcək. Yəqin ki, bundan sonra da düzgün bildiyi qərarları qəbul edib, müstəqil fəaliyyətlərinə davam edəcəklər”.

❑ Nərgiz LİFTİYEVA

# İqtisadiyyatın Strateji Yol Xəritəsi: yolun harasındayıq?


Natiq Cəfərli

## Ekspertə görə, atılan addımlar iqtisadiyyatda müəyyən irəliləyişlərə səbəb olub, amma...

**Ötən ilin sonunda prezident İlham Əliyev 12 istiqamət üzrə Strateji Yol Xəritəsi imzaladı. “Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri”nin təsdiqi və bundan irəli gələn məsələlər haqqında" sərəncamda bu xəritələrin istiqamətləri müəyyən edildi.**

Prezident sərəncamı ilə milli iqtisadiyyat perspektivi üzrə, neft və qaz sənayesinin (kimya məhsulları daxil olmaqla) inkişafına dair, kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair, kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair, ağır sənaye və maşınqayırmanın inkişafına dair, ixtisaslaşmış turizm sənayesinin inkişafına dair, logistika və ticarətin inkişafına dair, uyğun qiymətə mənzil təminatının inkişafına dair, peşə təhsili və təliminin inkişafına dair, maliyyə xidmətlərinin inkişafına dair, telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair, kommunal xidmətlərin (elektrik və istilik enerjisi, su və qaz) inkişafına dair Strateji Yol Xəritələri təsdiqlənib və müvafiq orqanlara tapşırıqlar verilib.

Bu yol xəritələrinin icrasına başlansa da, ciddi bir fəaliyyət nəzərə çarpmır. Əksinə Mərkəzi Bankın yaratdığı pul qıtlığı nəticəsində iqtisadi aktivlik daha da zəifləyib.

*Bəs görəsən, hökuməti bu strateji yol xəritələrinin icrasına başlayıbmı? Hazırda bu yolun harasındayıq?*

“Yeni Müsavat”ın suallarını cavablandıran **iqtisadçı-ekspert Natiq Cəfərli** bildirdi ki, yol xəritəsinin istiqamətləri doğru təsbit olundu, lakin bu sahələrin birgə koordinasiyalı şəkildə inkişafının bir ümumi mənzərəsi yaradılmadı: “Ayrı-ayrı sahələrdə müxtəlif addımlar atılır. Bəzən bu addımlar effekt verməkdə dəyişdirilir. Atılan addımların digər sahələrə təsirlərinin ölçülməsi mexanizmi yoxdur. Məsələn, kənd təsərrüfatı prioritet sahələrdən biridir. Bu sahədə müəyyən addımlar atılır. Pambıqçılıq əsas sahələrdən biri kimi elan olunub. Ancaq bu sahədə atılan addımların digər sahələrə necə təsir edəcəyi ilə bağlı bir araşdırma ortaya qoyulmayıb. Rayonlarda əkin yerlərinin, otlaq sahələrinin ləğv edilərək yerində pambıq əkilməsi ilə yem bahalaşdı, bununla paralel olaraq ətin də qiyməti qalxdı. Hər hansı addımın atılması üçün prioritetlər doğru seçilə bilər, kağız üzərində sözlər yazıla bilər, ancaq bütün bunlar həyata keçirilərkən onun digər sahələrə təsirinin ölçülməsi mexanizmləri olmalıdır”.

**İqtisadçının sözlərinə görə, dünya təcrübəsində də görmək olar ki, yol xəritəsinin əsas mahiyyəti onun baş tutacağı zaman kəsiminin göstərilməsidir:** “Hər bir işin icrası ilə bağlı zaman kəsimi göstərilməlidir. Birinci problemlərin təsbit edilməsi dövrü olmalıdır, daha sonra ilk 100 gündə görüləcək işlər, daha sonra 200 gündə görüləcək işlər və sair qeyd olunmalıdır. Tədbirlər planının aylar üzrə bölgüsü aparılmalı idi. Çox təəssüf ki, belə olmadı. Çünki istiqamətlər doğru təsbit olunsa da, atılan addımlar bir sahədə müəyyən irəliləyişə səbəb olsa da, başqa bir sahədə zəifləməyə səbəb oldu. Bu baxımdan yol xəritəsinin həyata keçirilməsi üçün nəzərdə tutulmuş bir koordinasiya mərkəzi, beyin mərkəzi olmalıdır. Hər həftə bu mərkəzdə gələn məlumatlar ciddi şəkildə araşdırılmalıdır. Belə olmasa, ayrı-ayrı sahələrdə atılan addımlar ümumi mənzərədə ciddi dəyişikliyə səbəb olmaz”.

**N.Cəfərli qeyd etdi ki, iqtisadi islahatlar idarəetmə və hüquq islahatları ilə paralel aparılmalıdır:** “Yol xəritəsində ən əsas problem o idi ki, iqtisadiyyatda atılan addımlarla paralel olaraq idarəçilikdə atılan addımlar təsdiqini tapmadı. Çünki iqtisadiyyat idarəetmə ilə sıx bağlı olan bir sahədir. İdarəetmədə hər hansı problemlər varsa, onu həll olunmadan iqtisadi islahatlar keçirmək effekt vermir. Paralel olaraq idarəetmədə dəyişiklik olmalıdır. Hüquq-mühafizə orqanlarında və məhkəmə sistemində dəyişiklik olmalıdır. Bu çox vacibdir. İqtisadi uğura imza atmış ölkələrin təcrübəsinə baxanda görürük ki, bu 3 xətt həmişə paralel olub. Cari islahatlar idarəetmə islahatları və məhkəmə islahatları ilə paralel aparılıb. Cənubi Koreya misalında da, Sinqapur misalında da, Asiya ölkələrinin misalında da biz bunu görürük. Bu ölkələrin hamısında idarəetmə, hüquq və iqtisadi islahatlar paralel aparılıb. Yol xəritəsində nəzərdə tutulan bu 12 istiqamətin bir-biri ilə qarşılıqlı əlaqəsi, təsiri təsbit olunmayıb”.

❑ Nərgiz LİFTİYEVA

YENİ MÜSAVAT
N 78 (6692) 15 aprel 2017

# "Moskvadan xahiş etdim ki, nə olursa-olsun, bircə ÜAK ləğv olunmasın"

**Professor İlham Rəhimov Ümumrusiya Azərbaycanlıları Konqresi ilə bağlı "Yeni Müsavat"a detallı açıqlamalar verdi:** "Bu yaxınlarda Moskvaya gedəcəyəm, məhkəmə baxışından qabaq orada olacağam, baxmayaraq ki, Konqresə heç bir aidiyyətim yoxdur, mən biganə qala bilmərəm"

**Hüquq elmləri doktoru, professor İlham Rəhimov Ümumrusiya Azərbaycanlıları Konqresinin (ÜAK) ləğvi ətrafında cərəyan edən proseslərlə bağlı "Yeni Müsavat"a geniş müsahibə verib. Digər aktual məsələləri də əhatə edən, maraqlı detallarla zəngin olan müsahibəni təqdim edirik:**



***- İlham müəllim, ÜAK-ın qeydiyyatının ləğvi təşəbbüsü gözlənildiyindən daha artıq rezonansa səbəb oldu. Adətən Rusiyada verilən qərarlarla bağlı ehtiyatlı rəsmi mövqeyi müşahidə edirdik, amma bu dəfə tam fərqli münasibət sergiləndi. Milli Məclisdə açıq etirazlar səsləndi, bu qərarın arxasında erməni barmağının olduğu iddiası eşidildi. Sizin Rusiya hakimiyyət dairələrinə birbaşa çıxış imkanlarınız var. Nə baş verir? Rusiya Ədliyyə Nazirliyi niyə Azərbaycanın ən böyük diaspor təşkilatının ləğvini istəyir?***

- Siz orda çıxış edən millət vəkillərinin birindən soruşa bilərdiniz ki, hörmətli millət vəkili, sizdə qeydiyyatla bağlı bu məlumat hardandır? Milli Məclis bu məsələni müzakirə edirsə, həmin məsələ ilə bağlı kimsə gəlib məlumat verməlidir. Daha sonra onun ətrafında müzakirələr olur. Yoxsa belə çıxdı ki, o məsələni parlamentdə müzakirə etdilər, amma heç bir rəsmi sənəd, məlumat olmadı, yəni bu işlə məşğul olan hansısa bir rəsmi şəxs gəlib orda məlumat vermədi. Belə göründü ki, millət vəkilləri faktiki olaraq qəzetlərdə nə yazılırsa, o məlumatı götürüb onu müzakirə etdilər.

***- Amma deputatların çıxışlarından məlum oldu ki, heç də prosesdən məlumatsız deyillər. Yəni onlar bundan əvvəl də ÜAK-a sənədlərdəki çatışmazlıqlarla bağlı məktub göndərildiyini dedilər. Lakin bildirildi ki, 2016-cı ilin sonlarında ÜAK-a yeni rəhbərlik seçilib, sənədlərin nizama salınması üzərində iş getdiyi halda, Ədliyyə Nazirliyi Ali Məhkəməyə qeydiyyatın ləğvi ilə bağlı müraciət edib...***

- Əgər bu məsələ müzakirə olunursa, bu işlə məşğul olan hansısa rəsmi şəxslər var, həm Bakıda, həm Moskvada, onların bu məsələ ilə bağlı məlumatları var, əvvəlcə onları dinləmək lazım idi. Ondan sonra hansısa bir fikir yürütmək olardı. Açığı, mən özüm də bu məlumatı qəzetlərdən oxudum ki, Ədliyyə Nazirliyi dekabrda keçirilən qurultayın materiallarını Ali Məhkəməyə göndərib. Özü də məsələ qeydiyyatın ləğvi ilə bağlı qoyulub.

***- Yəqin ki, araşdırmaq imkanlarınız oldu...***

- Mən özüm də bu məsələ ilə bağlı narahat oldum. Düzdür, Konqresə heç bir aidiyyatım yoxdur. O mənada ki, birbaşa Konqresin işində iştirak etmirəm, dekabrdakı qurultaya da məni dəvət etmədilər. Ancaq ona baxmayaraq, təbii ki, çox vaxt Moskvada olduğumdan, ordakı azərbaycanlılar, regionlardakı diaspor rəhbərləri, Azərbaycan diasporunun ayrı-ayrı nümayəndələri ilə şəxsi münasibətim var, çoxunu tanıyıram, ona görə də mən bu məsələyə biganə qala bilməzdim.



**"Azərbaycan və Rusiya prezidentlərinin indiki dövrdə yüksək münasibətləri var, belə xırda məsələlər heç vaxt o münasibətlərə təsir edə bilməz"**

Daha sonra isə Rusiyada yaşayan ayrı-ayrı diaspor nümayəndələri mənə zəng etdilər ki, İlham müəllim, bəlkə siz bilərsiniz, bu, nə məsələdir? Bunun ardınca Konqresin bir neçə rəhbər şəxsi, vitse-prezidentlər mənə müraciət etdilər ki, Konqresin ləğvi məsələsi var, sizcə, bu, necə olacaq? Dedim, axı mən bilmirəm bununla kim məşğul olub, hər halda ondan soruşa bilərsiniz. Nə isə... Bir neçə gün bundan qabaq Nazim İbrahimov mənə telefon açdı. Hiss olundu ki, o da məsələ ilə bağlı çox narahatdır. Mənə danışdı, dedim özüm də qəzetlərdən oxumuşam. Soruşdum ki, ÜAK-ın ləğvi tələbinin səbəbi nədir? Ola bilməz axı, səbəbsiz bir şey olsun. O da mənə dedi ki, heç biz özümüz də bunun səbəbini bilmirik. Soruşdum ki, mən neyləyə bilərəm? Dedi səbəbini öyrənə bilərsinizmi? Bildirdim ki, çalışaram. Mən məsələni sonraya saxlamadım, elə səhəri günü əlaqə saxladım. Çünki bilirdim ki, aprelin 11-də artıq məhkəmə olmalıdır. Ona görə də, özüm də aydınlaşdırmağa tələsdim. Və hamısını aydınlaşdırdım. Sonra Nazim müəllimin özünə də məlumat verdim ki, Konqresdən qeydiyyat üçün göndərilən sənədlər düzgün tərtib olunmayıb. Dedim bilmirəm siz bilirsiniz, ya yox, ancaq Ədliyyə Nazirliyi qurultaydan qabaq və sonra Konqresə xəbərdarlıq məktubu yazıb göndərib ki, sizin sənədlərdə nöqsanlar var, onları aradan qaldırmaq lazımdır. Ancaq Konqresdən heç kim məktuba reaksiya verməyib. Dedim mənə məlumat belə çatıb. Bu mənada söhbət ondan gedir ki, orada sənədlər düzgün tərtib olunmayıb və bu səbəbdən məhkəməyə müraciət olunub. Məhkəmədən qabaq isə ÜAK rəhbərliyinə müraciət olunub, məktub göndərilib.

***- Rusiya qanunları nə deyir, Ədliyyə Nazirliyi Konqresə növbəti dəfə şans verə bilməzdimi?***

- Bəs, ona görə məktub göndəriblər ki, "nümayəndəniz gəlsin, nə etmək, bunu necə aradan qaldırmaq lazımdır, bütün bunları başa salaq".

***- Gedən olmayıb?***

- Əgər gedən olsaydı, məhkəməyə niyə müraciət olunurdu ki?

***- İlham müəllim, Rusiyadan gələn təhlükələrdən zaman-zaman ziyan görmüşük, ona görə də hər addımda şübhəyə düşməyimiz bir az da təbiidir. Bu gün Rusiyada onlarla erməni diaspor təşkilatları var, hətta "Artsax" adı ilə fəaliyyət göstərənlər, Naxçıvana iddia edən qurumlar rahat fəaliyyət göstərir. Sizə elə gəlmirmi ki, ÜAK-la bağlı proses əslində hüquqi yox, siyasi mahiyyətlidir?***

- Bir var məsələni siyasiləşdirək, bir də var hüquqşünas kimi danışaq... Prinsip etibarilə burada günahkarı kənarda axtarmaq lazım deyil. Sadəcə olaraq burada Konqresin özünün günahıdır ki, məsələyə səhlənkar yanaşıblar, söhbət bundan gedir.

***- Amma hətta Azərbaycandakı Rus İcmasının rəhbəri Mixail Zabelin də Rusiya Ədliyyə Nazirliyinin qərarına açıq etirazını bildirdi. Deməli, siyasi qərarın olması iddiası tam əsassız ola bilməzdi...***

- Əvvəla, bu, elə bir məsələ deyil ki, Rusiya prezidentinin səviyyəsinə qalxsın. Azərbaycan ilə Rusiya arasında elə bir münasibət var ki, heç bir vaxt belə xırda məsələlərə görə münasibətlərə xələl gələcəyini gözləmək olmaz. Burada bir məsələ də var. Nəyə görə deyirəm bunu siyasiləşdirməyə ehtiyac yoxdur? Gəlin, tarixə qayıdaq, Konqresin yaranma məsələsinə. Hamımız bilirik ki, Konqresin yaradılması rəhmətlik Heydər Əliyevlə bağlıdır, təşəbbüskar o olub. Yadımdadır ki, 2001-ci ildə diaspor təşkilatının qurultayı keçiriləndə bu işlə rəhmətlik Aydın Səmədoviç Qurbanov çox aktiv məşğul olurdu, indiki Konqresin sədrinin kiçik qardaşı. Hazırlıq işinə o baxırdı, təşkilati məsələlərlə məşğul idi. Azərbaycanın Rusiyadakı keçmiş səfiri Ramiz Rizayevin də Konqresin yaradılmasında çox böyük əməyi var. Onda Aydın Qurbanov məndən xahiş etdi ki, İlham müəllim, bizim qurultay olacaq, olarmı Putinin qurultay iştirakçılarına təbrik məktubunu hazırlayaq, siz ona qol çəkdirəsiniz? Razılaşdım, rəhmətliklə bir yerdə məktubu hazırladıq və mən bu məktubla Putinin yanına getdim. Mən bunun hamısını sizə niyə danışıram? Ona görə ki, indiki vəziyyəti Putinə bağlamaq insafsızlıqdır.

**"...Məktubu hazırladıq və mən bu məktubla Putinin yanına getdim. Bunun hamısını sizə niyə danışıram? Ona görə ki, indiki vəziyyəti Putinə bağlamaq insafsızlıqdır"**

***- Maraqlı faktdır. Məktuba reaksiya necə oldu?***

- Məktubu apardım, dedim bizim qurultay hazırlığı gedir, çox yaxşı olar ki, siz bu təbrik məktubuna qol çəkəsiniz, biz onu orda oxuyaq. O mənə nə desə yaxşıdır? Dedi bu, bir az yaxşı çıxmaz ki, mənim təbrikimi sizlərdən kimsə orda oxusun. Daha hörmətli olar ki, mən - Prezident Administrasiyasının o vaxtkı rəhbəri Aleksandr Stalyeviç Voloşin idi - Voloşinə tapşıracağam, qurultayda mənim təbrikimi o oxuyacaq. Elə də oldu. Bir neçə gündən sonra prezidentdən xahiş etdim ki, artıq qurultayımız keçirilib, amma biz işləmək üçün Rusiya hökumətindən kiminləsə əlaqələr yaratmalıyıq ki, fəaliyyətimizi, nə ilə məşğul olacağımızı siz də biləsiniz və bizə bir kömək də edəsiniz. Dedi çox gözəl. Həmin Voloşinə tapşırdı ki, İlham Rəhimovla görüşün, bütün o məsələləri bir yerdə müzakirə edin. Üç saat Voloşinlə oturduq və bu haqda söhbət etdik və perspektiv planlarımızdan danışdıq. Ondan sonra da açığını deyim, bizim Konqres çox güclü işləyirdi. Bir-birimizə kömək edirdik, məsləhətləşirdik, İdarə Heyətində iclaslar keçirirdik. Fikir verin, orada kimlər var idi: Vahid Ələkbərov, rəhmətlik Aydın Qurbanov, Telman İsmayılov, Araz Ağalarov, Rüstəm İbrahimbəyov, Tahir Salahov, İsgəndər Xəlilov... Yəni Rusiyada olan tanınmış iş adamları, ziyalılar... Başqaları da var idi, hamısını saymaq istəmirəm. Çox güclü bir təşkilat idi və neçə illər ərzində çox güclü işlədi.

***- Yuxarıda adlar da sadaladınız. Belə fikirlər də var ki, Rusiya 2013-cü il prezident seçkiləri ərəfəsində "Milyarderlər İttifaqı" layihəsini işə saldığı kimi, 2018-ci il seçkilərində də Bakıya təzyiq planını işə sala bilər. Üstəlik, ÜAK ətrafında baş verənlərdə "milyarderlər klubu"nun nümayəndələrinin iştirakı versiyası da var. Bu versiyalar haqqında nə deyə bilərsiniz?***

- Bu, ayrı-ayrı şəxslərin fikridir. Ona görə də, mən onları qeyri-ciddi fikir kimi qəbul edirəm.

***- Faktiki olaraq siz Konqresin həmtəsisçisi olmusunuz, amma son illərdə kənarda qalmağa üstünlük vermisiniz. Hər halda səbəbsiz deyil...***

- Həmtəsisçi deyəndə ki... Mən o təşkilatın yaranmasında aktiv iştirak edirdim, nə imkan var idi, yaxından dəstək olurdum. Bu da təbii idi. Çünki mən orda çox adamları tanıyırdım, münasibətim var idi, əlim çatırdı. Məsələn, o vaxt Rusiya Prezident Aparatında bizə təklif etdilər ki, istəyirsiniz sizə hansısa telekanalda vaxt ayıraq, orda millətinizi, mədəniyyətinizi, Konqresin işini təbliğ edəsiniz. Onda Putin təzə hakimiyyətə gəlmişdi və rəhmətlik Heydər Əliyevlə də çox gözəl münasibətləri var idi, bir-birinə çox böyük hörmətlə yanaşırdılar. Ona görə də çox təbiidir ki, Putin çox çalışırdı və əlindən gələni edirdi ki, Azərbaycan diasporuna nə imkan varsa, köməklik olunsun. Bunlar faktdır.

(davamı səhifə 6-da)



# "Məhkəmə baxışından qabaq Moskvada olacağam"

## İlham Rəhimov: "Bir neçə ay bundan əvvəl 800 yük maşını orda qalmışdı, mən problemi həll etdim, indi yenə deyirsiniz eyni vəziyyət yaranıb; səbəbini deyim..."

(əvvəli səhifə 5-də)

***- "Şimal küləyi"ndən tarixən başımız çox çəkib. O mənada Rusiyadakı aparıcı diaspor təşkilatının ətrafında baş verənlər də birmənalı qarşılanmadı, burada Rusiya hakimiyyət dairələrinin təsirinin olması daha inandırıcı göründü...***

- Həqiqət ondan ibarətdir ki, indiki Azərbaycan diaspor təşkilatı həmin mən dediyim 2001-ci və ondan sonrakı illərdə olan diaspor təşkilatı kimi deyil. O vaxt çox monolit bir təşkilat idi. Amma indi başa düşmək olmur orada nə baş verir.

***- Ədliyyə Nazirliyinin nümayəndəsi 11 apreldəki məhkəmə prosesinə gəlmədiyi üçün proses 25 aprelə təyin olunub. Necə bilirsiniz, ertələnmə qərarı dolayısı ilə iddiadan imtina mənasını verir, yoxsa bu qənaətə gəlmək tezdir? Gözləntiləriniz necədir?***

- Nazim müəllimlə söhbətdən sonra ki, bu işlə məşğul oldum, artıq orada Ədliyyə Nazirliyinə aid iş yox idi. Sənədlər artıq Ali Məhkəməyə getmişdi. Əgər sənədlər Ədliyyə Nazirliyində olsaydı, təbii ki, ayrı tədbirlər görmək olardı. Ancaq indi bircə o qalır ki, Ali Məhkəmə elə bir qərar versin ki, Konqresin qeydiyyatı ləğv olunmasın. Mənim Moskvadan xahişim ondan ibarət oldu ki, nə olursa-olsun, bircə təşkilatın qeydiyyatı ləğv olunmasın. İndi gözləyirəm ki, hər halda mənim xahişimi nəzərə alacaqlar. Yeni mənim əlimdən gələn bu oldu. Bu yaxınlarda Moskvaya gedəcəyəm, məhkəmə baxışından qabaq orada olacağam. Təbii ki, bir azərbaycanlı kimi - baxmayaraq ki, Konqresə heç bir aidiyyətim yoxdur - mən biganə qala bilmərəm və öz təşəbbüsümlə bu işlə məşğul olacağam.

***- Baş verənlər Sergey Lavrovun "Rusiya Azərbaycanı Avrasiya Birliyində görmək istəyir" açıqlamasından sonraya təsadüf edir. Sadəcə təsadüfdürmü?***

- Bu, elə bir ciddi məsələ də deyil. Bunu şişirtməyə, siyasiləşdirməyə dəyməz. Düzdür, qəzetlərdə Lapşinlə də bağlayırlar. Amma qeyri-ciddi yanaşmadır.

***- Amma digər məsələlər də var. Şimal sərhədlərimizdə Azərbaycan məhsullarının idxalına qoyulan qadağa, yük maşınlarımızla bağlı yaradılan problemlər. Bəs, bunlar barədə nə deyə bilərsiniz? Ola bilməz ki, bütün məsələlərdə Rusiya haqlı olsun...***

- Bir neçə ay bundan əvvəl 800 yük maşını orda qalmışdı. Mən problemi həll etdim. İndi yenə deyirsiniz eyni vəziyyət yaranıb. Səbəbini deyim, ordakı məhsulların əksəriyyəti Türkiyədən gəlib. O da olmaz! İkinci məsələ də var. Orada sərhəddən buraxılma, gömrük məsələsi deyil. Rusiya sürücüləri orada yolu bağlayıblar, o da pullu yoldur. Azərbaycandan gedən maşınlara deyirlər ki, siz də bizə qoşulun, birgə mübarizə aparaq, yola pul verməyək! Söhbət bundan gedir. Yoxsa burada siyasi çalar axtarmağa dəyməz.

***- Rusiyanın tanınmış teleaparıcısı Vladimir Solovyev Bakı səfərindən sonra Azərbaycan prezidenti ilə görüşdən maraqlı bir məqamı açıqlamışdı. "Biz Rusiya ilə Azərbaycan arasındakı əməkdaşlıqdan danışanda mən dedim ki, Rusiya Azərbaycanı heç vaxt satmaz. O, etiraz etdi və bildirdi ki, Putin heç vaxt satmaz"-Solovyov prezident İlham Əliyevin dediklərini xatırladıb. Siz Putini yaxından tanıyırsınız, bu haqda nə deyə bilərsiniz? Putinin müstəqil Azərbaycana münasibəti sona qədər səmimidirmi?***

- Azərbaycan və Rusiya prezidentlərinin indiki dövrdə yüksək münasibətləri var, belə xırda məsələlər heç vaxt o münasibətlərə təsir edə bilməz.

***- Lavrovun Bakıya Gömrük İttifaqı ilə bağlı ünvanlandığı mesajda sətiraltı məqsəd ola bilər... Yaxud "Dağlıq Qarabağ məsələsi Azərbaycanın daxili işi deyil", açıqlaması...***

- Lavrovun Qarabağla bağlı dediklərinə mən cavab vermişdim. Kimisə hansısa iqtisadi ittifaqa dəvət etməkdə pis bir şey yoxdur, amma qərarı ölkənin özü verir. Sərf edirsə, həmin ölkə daxil olur, sərf etmirsə, yox.

***- Moldova da Avrasiya Birliyi ilə bağlı qərar verdi...***

- Baxmayaraq ki, Moldova Avropaya hər tərəfdən daha yaxın, onların prinsiplərini daha çox qəbul edən ölkədir, Avropa ona qadağa qoya bilməz.

***- Azərbaycanın analoji addım atması mümkündürmü?***

- Söhbət iqtisadi ittifaqa qoşulmaqdan gedir. Əgər Azərbaycana iqtisadi nöqteyi-nəzərdən xeyir verirsə, niyə də ora getməsin? Mən siyasi tərəfinə qarışmıram. Yox əgər bu, hardasa ziyandırsa, onda təbii ki, ora getməyə dəyməz. Əgər biz indi o ittifaqı qəbul etmiriksə, demək bizə sərf eləmir.

***- İlham müəllim, "Yeni SSRİ" təhlükəsi qalırmı?***

- Bunu beyninizdən çıxarın. Bu, mümkün olan şey deyil...

❑ **Elşad PAŞASOY**
❑ **Foto: "YM"**

# AB ilə viza rejiminin ləğvinə dair danışıqlar başlayır - rəsmi açıqlama

## XİN rəsmisi Avropa Birliyi ölkələrinə gediş-gəlişin sərbəst olmasının müzakirə edildiyini bildirib; **sabiq xarici işlər naziri:** "Hər iki tərəf istəyir ki, viza rejimi qaldırılsın"




**Avropa Birliyi(AB) ilə Azərbaycan arasında yeni saziş üzrə danışıqların növbəti mərhələsi aprelin 25-də Bakıda keçiriləcəyi barədə xəbər vermişdik. Görüşdə Azərbaycanın təqdim etdiyi və Aİ-nin dəyişikliklər təklif etdiyi sənəd üzrə danışıqlar aparılacaq. Danışıqlar ilkin olaraq siyasi məsələləri əhatə edəcək.**

"Yeni Müsavat" bu danışıqlar ərəfəsi-12 aprel sayında "Avropa Birliyi Azərbaycanla viza rejimini ləğv edir" başlıqlı yazı (http://musavat.com/news/avropa-birliyi-azerbaycana-viza-rejimini-legv-edir-sensasion-gelisme_429989.html ttp://musavat.com/news/avropa-birliyi-azerbaycana-viza-rejimini-legv-edir-sensasion-gelisme_429989.html) dərc edib. Yazıda diplomatik mənbələrə istinadən bildirilirdi ki, Azərbaycan AB ilə "Şərq Tərəfdaşlığı" layihəsi çərçivəsində assosiasiya sazişindən imtina eləsə də, Brüsselə qarşılıqlı maraqlara əsaslanan üstün tərəfdaşlıq razılaşmasının imzalanmasını təklif edib. Rəsmi Brüssel bu təklifə əvvəl etiraz etdi, amma ötən ilin ortalarından Azərbaycanla ikitərəfli tərəfdaşlıq sazişinə dair danışıqlar başlayıb. Ötən ilin fevralında Azərbaycan prezidenti İlham Əliyevin Brüsselə rəsmi səfərində ilk dəfə açıqlandı ki, artıq AB ilə Azərbaycan arasında strateji sənəd üzərində iş gedir. Məlumatlara görə, hər iki tərəfdən yaradılmış işçi qruplar artıq sənədlər üzərində işlərini tamamlayıblar.

**Məqalədə həmçinin deyilirdi:** "İddialar var ki, AB hazırda bir sıra ölkələrlə viza rejiminin ləğvi üçün tətbiq etdiyi ön şərtləri yumşaltmağı müzakirə edir. Çünki onsuz da bir sıra ölkələrdən gələn miqrant axınının qarşısını almaq mümkünsüzdür. Amma bu yumşalmalar qaynar nöqtələrə aid deyil, söhbət AB üçün daha önəmli ölkələrə tətbiq edilən ön şərtlərin yumşalmasından gedir. Bu sırada isə MDB ölkələri sırasında Azərbaycanın da olduğu deyilir".

"Avropa Birliyi ilə Azərbaycan arasında olan əməkdaşlıq çərçivəsində AB tərəfindən Azərbaycan vətəndaşlarına münasibətdə vizaların ləğv edilməsi müzakirə mövzularından biridir". "Yeni Müsavat"ın xəbərini təsdiqləyən bu fikirləri **XİN-in mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev** deyib. XİN rəsmisi bildirib ki, AB ilə Azərbaycan arasında vizaların sadələşdirilməsi və readmissiya haqqında saziş artıq bir neçə ildir qüvvədədir: "Sözügedən saziş çərçivəsində uğurlu əməkdaşlıq viza məsələsi ilə əlaqədar müzakirələrin növbəti yeni mərhələyə çıxarılmasına əlverişli zəmin yaradır. Vizaların ləğv edilməsi məsələsinin Azərbaycan və AB arasında danışıqlar aparılan yeni tərəfdaşlıq sazişi çərçivəsində baxılması da istisna deyil".

Göründüyü kimi, artıq bu məsələdə ciddi irəliləyiş var. Gürcüstan və Ukraynadan sonra Azərbaycan vətəndaşlarının da Şengen ərazisinə vizasız, yaxud sadələşdirilmiş viza ilə gedəcəkləri mümkün olacaq.

Sabiq xarici işlər naziri Tofiq Zülfüqarov da Azərbaycanla Avropa Birliyi arasında viza rejiminin qaldırılması ilə bağlı xəbərlərdən danışıb. Pia.az saytına danışan sabiq xarici işlər naziri qeyd edib ki, Avropa Birliyi ilə Azərbaycan arasında viza rejiminin ləğv edilməsi məsələsində Azərbaycanın sərgilədiyi mövqe düzgündür. Çünki bu məsələdə də Azərbaycanın mövqeyində hər iki tərəfin bərabərliyi göstərilir: "Rəsmi Bakının viza rejiminin ortadan qalxması naminə Avropa Birliyinin şərtlərini qəbul edib-etməsi barədə heç nə deyə bilmərəm. Amma onu da qeyd edim ki, hər iki tərəf istəyir ki, viza rejimi qaldırılsın. Azərbaycan da uzun müddətdir ki, bu istiqamətdə Avropa Birliyi ilə danışıqlar aparırdı. Avropa Birliyi ilə vizanın ləğv edilməsində Azərbaycanın əsas mövqeyi ondan ibarətdir ki, Avropa Birliyi bu məsələdə bizə nə verəcəksə, biz də qarşılıq olaraq onlara verməyə hazırıq. Mən hesab edirəm ki, Azərbaycanın bu mövqeyi çox düzgün mövqedir. Çünki bu mövqedə tərəflərin bərabərliyi göstərilir".

**Sabiq nazir deyib ki, Azərbaycanla Avropa Birliyi arasında viza rejiminin qaldırılması məsələsində Rusiyanın mövqeyi o qədər də əhəmiyyətli deyil:** "Çünki Azərbaycanın Rusiya ilə olan viza rejiminin tələbləri Avropa Birliyi ilə viza məsələsinin tələbləri ilə əlaqədar deyil. Yeni onsuz da qanunlara görə Azərbaycandan çıxmış və vizasız Azərbaycana gəlmiş bir insan Rusiya ərazisinə daxil olanda sərhəd məntəqəsindən keçir. Sərhəd məntəqəsində də o insanın sənədlərinə baxırlar. Əgər onun Rusiyaya vizası yoxdursa, onda o ölkəyə buraxıla bilməz. Buna görə də Azərbaycanla Avropa Birliyinin arasında viza rejimin ləğv edilməsi birmənalı şəkildə Rusiyaya aid olan məsələ ola bilməz və bu məsələyə Rusiyanın mövqeyi başqa cür də ola bilməz".

**T.Zülfüqarlı əlavə edib ki, Azərbaycanla Avropa Birliyinin arasında viza rejimin ləğv edilməsi məsələsi Azərbaycan-Ermənistan konfliktində nəyisə dəyişməməlidir:** "Çünki Azərbaycanla Avropa Birliyi arasında olan viza məsələsində əlavə maddələr ola bilər ki, ərazi işğal olunduğuna görə xüsusi rejim tətbiq olunsun. Bu problem həll ediləsi problemdir. Əgər qərar qəbul edilsə ki, bu problemə yenidən baxılsın və yeni şərait yaradılsın, bu zaman məsələyə baxılcaq. Məsələyə baxılandan sonra da məsələ həll ediləcək. Təbii ki, bir çox məsələlər var ki, onları danışıqlar vasitəsi ilə həll etmək mümkündür".

❑ **"YM"**

# İctimai yerlərdə siqaret çəkmək qadağan edildi

## Parlament Hesablama Palatasının illik hesabatını tənqid etsə də, qəbul etdi; **Siyavuş Novruzov:** "Kimsə maliyyəni oğurlayır, sonra onunla bağlı araşdırmalar başlanır"

**Aprelin 14-də spiker Oqtay Əsədovun sədrliyi ilə Milli Məclisin növbəti plenar iclası keçirildi. İlk olaraq Hesablama Palatasının sədri Vüqar Gülməmmədov qurumun 2016-cı il üzrə hesabatını təqdim etdi. V.Gülməmmədov bildirdi ki, ötən il 8 istiqamət üzrə 825 nöqsan və pozuntu halına yol verilib: "Hesabat ilində mühasibatlıq, büdcə vəsaitlərindən istifadə və satınalmalar zamanı nöqsanlara daha çox yol verilib. Dövlət satınalmaları sahəsində zəruri sənədlərin təqdim edilməməsi, vəsaitlərin səmərəsiz istifadə və digər pozuntular qeydə alınıb"-V.Gülməmmədov bildirdi. Sədr dedi ki, 2016-cı ildə audit ilə əhatə olunmuş qurumların sayı 155 olub".**



**Deputat Fərəc Quliyev** hesabat ətrafında çıxışı zamanı ölkədən çıxarılan vəsaitlərlə bağlı da Hesablama Palatasının rəhbərliyinə müraciət etdi: "Mən bilmək istəyirəm, həmin vəsaitlərin geri qaytarılması ilə bağlı işlər görülür, ya yox? Ümumiyyətlə, ölkədən nə qədər vəsait çıxarılıb? Biz mütləq bu məsələlərlə ciddi məşğul olmalıyıq. Məlumunuz olduğu kimi, ötən illərdə çox avantürist layihələrə külli miqdarda dövlət vəsaiti, kreditlər ayrıldı, həmin vəsaitlərin böyük əksəriyyəti də ölkədən kənara çıxarıldı... Palata niyə vaxtında bunlara diqqət yetirməyib?" F.Quliyev paytaxtdakı söküntü məsələlərinə də toxundu: "Bu yaxınlarda bir neçə sahibsiz sayılan villalar söküldü. Məncə, bu, oğurlanmış dövlətin pulu ilə tikilibsə, bu, dövlət əmlakıdır. Bunu uşaq bağçası, turist obyekti kimi istifadəyə verilməli idi".

**Deputat Əli Məsimli** 2016-cı il hesabatı daha çox faktaloji materiallara hesablandığı üçün əvvəlki dövrlərdəkindən fərqlənir, ona görə də sənədi müsbət qiymətləndirmək olar: "Büdcə vəsaitlərinin artırılması üçün xırda xərcləri məhdudlaşdırmaq effektli deyil. Pensiya yaşının artırılması, işıq, qazın qiymətinin qaldırılması ilə büdcəyə böyük vəsaitlər qazandıra bilməyəcəyik. Korrupsiya, inhisarın aradan qaldırılması büdcəyə kifayət qədər böyük məbləğlər qazandıra bilər. Hər halda biz kölgə iqtisadiyyatından daha çox faydalanmaqla yüz milyonlarla vəsaiti büdcəyə cəlb edə, daha ciddi uğurlara nail ola bilərik". Onun sözlərinə görə, büdcəyə bərpa olunan vəsait dəryada damladır: "Amma zəruri tədbirlər görülsə, on milyonlarla vəsaiti büdcəyə bərpa etmək olar. Biz büdcənin vəsaitinin 10 faizinin xarici borcların ödənməsinə sərf etməyə başlamışıqsa, artıq bu, həyəcanlı məsələdir. Bir məktəbin tikilməsinə, yolun çəkilməsinə üç dəfə pul ayrılır, amma nə məktəb var, nə yol. Məmur sahibkarlığının qarşısını almasaq, Azərbaycan iqtisadiyyatının inkişafı mümkün olmayacaq".

**Deputat Fəzail İbrahimli** Hesablama Palatasının hesabatını yüksək dəyərləndirdi: "Elə strukturlar var ki, oraya getmək, yoxlama aparmaq elə bilməyin ki, asandır. Amma Hesablama Palatası belə qurumlara da gedib, üzərinə düşən işin öhdəsindən gələ bilib. Biz 10 il əvvəlki hesabata baxdıqda sanki zəif tələbənin kurs işini görürdük. Ancaq bugünkü hesabat tamam fərqli, mükəmməl bir sənəddir. Hətta hesabata qədərki dövrdə sənəd mətbuatda geniş müzakirə olunub".

**Deputat Fazil Mustafa** qida təhlükəsizliyi məsələsində hökm sürən acılanacaqlı vəziyyətə də diqqət çəkdi: "Son vaxtlar hər gün oxuyuruq ki, filan rayonda at kəsildi, eşşək kəsildi, it kəsildi. Kəsib lüləkabab şəklində restoranlarda vətəndaşlara yedirirlər. Bunun başında hansıa məmurun vəsaitlər qazanması müqabilində baş verir. Yaxud adi Xəzər dənizinin balığına da vətəndaş həsrət qalıb. Mal-heyvanı, qaz-nefti başa düşdük. Bu balığa ki, ot, yem verilmir. Elə qiymət qoyurlar ki... Bu ölkədə yaşayan vətəndaş da heç olmasa o kürüdən bir qaşıq yeyə bilsin. Heç olmasa bu sahədə qiymətlərə nəzarət etmək lazımdır".

**Deputat Qüdrət Həsənquliyev** də tənqidi fikirlər səsləndirdi: "Çox üzücü haldır ki, audit aparılan bütün qurumlarda maliyyə problemləri ortaya çıxıb. Deməli, ölkədə maliyyə nizam-intizamı ilə bağlı ciddi problemlər var". Palatanın təqdim etdiyi sənədə tənqidi yanaşan deputat 33 nəfərin işdən azad edilməsi, yaxud 51 nəfərə şiddətli töhmət elan edilməsini yetərli saymadı: "Tətbiq olunan cəzalar bundan ibarətdir. Hətta bilinmir ki, bu 33 nəfər işdən xüsusi qərarla çıxarılıb, ya yox. Vəzifəli şəxslər də fikirləşir ki, maliyyə pozuntusu aşkarlansa, ya töhmət veriləcək, ya işdən aşağı vəzifəyə keçiriləcək. Ona görə də çəkinmədən bu qanunsuzluqlara gedir". **Q.Həsənquliyev təklif etdi ki, Milli Məclisdə büdcəyə və büdcəyə nəzarət komitəsi yaradılsın:** "Dövlət əmlakını oğurlayanlar ciddi şəkildə cəzalandırılmalıdır, Vüqar müəllim! Siz isə ancaq qarşıya məqsəd qoymusunuz ki, oğurlanan vəsaitlər büdcəyə geri qaytarılsın".

**Deputat Zahid Oruc** da büdcəni talan edənlərə daha sərt cəza verilməsini zəruri saydı: "Təsəvvür edin, on minlərlə vətəndaş kredit borclarına görə məhkəmələrə verilir. Amma burada söhbət milyonlarla manat vəsaitdən söhbət getdiyi halda, həmin şəxslərə sadəcə xəbərdarlıq gəlir ki, bir də belə şey eləməyin".

**Deputat Qənirə Paşayeva** hesabatı dəstəklədiyini dedi. Eyni zamanda sənəddə əksini tapan bir sıra problemlər haqqında danışaraq müvafiq qurumları həmin məsələlərə daha çox diqqət ayırmağa çağırdı: "Respublika üzrə məktəbəqədər təhsil müəssisələrinə uşaqların cəlb olunma faizinin ciddi şəkildə artmaması bizi ciddi narahat etməlidir və ümid edirik ki, bu vacib problemin həlli istiqamətində cənab prezidentin verdiyi son tapşırıqlar və bu gün Milli Məclisdə 3-cü oxunuşda müzakirə olunacaq "Məktəbəqədər təhsil haqqında" qanun layihəsi ciddi rol oynayacaq".

**Deputat Siyavuş Novruzov** auditin nəticəsi olaraq maliyyə vəsaitlərinin ödənilməsini daha doğru yol saydı: "Nə qədər cəza verirsən-ver, bu vəsaitlər büdcəyə qayıtmır ki. Ona görə də birinci növbədə dövlət əmlakının qaytarılmasına diqqət yetirməliyik. Həbs olacaqsa, həmin şəxsin saxlanılması xərcləri də ortaya çıxır. Amma burada bir məsələ də var. Biz gözləyirik ki, kimsə cinayəti törətsin, sonra gedib deyək cinayəti törətmisən, vəsaiti geri qaytar! Məncə, bir yerdən siqnal gələn kimi, Palataya dərhal yoxlama həyata keçirmək səlahiyyəti verilməlidir. Kimsə maliyyəni oğurlayır, yerinə süpürgə çəkir, sonra onunla bağlı araşdırmalar başlanır. Kreditlərin verilməsində də bankın birinci məqsədi ondan ibarət olmalıydı ki, həmin kreditlərin düzgün istifadə olunub-olunmadığını araşdırsın. Amma buna əhəmiyyət verilmədi və nəticədə vətəndaşların illərlə formalaşan inamını sarsıtdılar".

**Bundan sonra birinci vitse-spiker Ziyafət Əsgərov** hesabatın səsə qoyulmasını təklif etdi və səsvermə ilə Hesablama Palatasının illik məruzəsi qəbul olundu.

Bundan sonra İctimai Televiziya və Radio Yayımları Şirkəti Yayım Şurasının üzvlüyünə yeni namizədlərin seçilməsi müzakirə olundu. Namizədlər Mətbuat Şurası tərəfindən namizədliyi irəli sürülən Azər Həsrət və Yadigar Məmmədli, Milli Elmlər Akademiyası tərəfindən Muxtar İmanov, Həmkarlar İttifaqları Konfederasiyası tərəfindən isə Həsən Cəfərov və Əli Cəfərov idi. Səsvermə nəticəsində Yayım Şurasına üzvlüyə Azər Həsrət, Muxtar İmanov və Həsən Cəfərov Yayım Şurasına üzv seçildi. Z.Əsgərov yeni üzvləri təbrik edərək onlara uğurlar arzuladı.

"Azərbaycanda 2500-ə yaxın məscid fəaliyyət göstərir. Heydər Əliyev Məscidi təkcə Cənubi Qafqazda deyil, əksər müsəlman ölkələrində ən müasir, yüksək arxitektiraya malik məsciddir". **Deputat, İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov** "Sovetski" adlanan ərazidəki Hacı Cavad məscidi ətrafında baş verənlərə münasibəti zamanı belə söylədi: "Məscidin funksiyası o deyil ki, insanlar ora toplaşıb nələrisə müzakirə etsinlər. Bu il İslam Həmrəyliyi ili elan olunub, ona görə də aranı qarışdırmaq istəyən qüvvələr var. Ona görə də biz ayıq-sayıq yanaşmalıyıq. Hörmətli jurnalistlərimiz də diqqətli olmalıdır. Ondan 50-100 metr aşağıda Təzəpir məscidi var, get, orda namazını qıl. Yaxud bir az o tərəfdə İmam Hüseyn məscidi fəaliyyət göstərir".

**Deputat Fazil Mustafa** mətbuatı diqqətli olmağa çağırdı: "Son günlər Yasamaldakı "Hacı Cavad" məscidinin sökülməsi ilə bağlı məsələ gündəmə gəldi. Sonra məlum oldu ki, məscid hüquqi şəxs kimi qeydiyyatdan keçməyib. Belə bir rəy yaradılmağa çalışıldı ki, guya dövlət tərəfindən məscidlərə qarşı guya təzyiq olması barədə görüntü yaratmağa çalışırlar. Guya dövlət tərəfindən məscidlərə qarşı təzyiq var. Amma prezident tapşırıq verib ki, məscid üçün daha yaxşı yer seçilsin". **F.Mustafa jurnalistlə Yasamal rayon İcra Hakimiyyətinin başçısı İbrahim Mehdiyev arasında yaranan mübahisəyə də münasibət bildirdi:** "Bizdən də bu barədə rəy soruşuldu. Mən həmin videoya baxdım. Orada icra başçısı jurnalistə normal şəkildə deyir ki, məsələyə aydınlıq gətirilsin məlumat veriləcək. Jurnalistin informasiya almaq azadlığı var, informasiya qoparmaq azadlığı yox. O videonu biz də izlədik, orada icra başçısı jurnalistə sillə vurmur. Yasamalın icra başçısı qıza sillə vurası adam deyil. Məmurun da hüququ var, hesab edirəm ki, cəmiyyətə yanlış informasiya vermək lazım deyil".

**Deputat Qüdrət Həsənquliyev** isə mühüm tədbirlər ərəfəsində gərginlik yaratmaq istəyən qüvvələrlə bağlı ciddi tədbir görməyi zəruri saydı: "Hesab edirəm ki, həmin məscidin sökülməsi zamanı polisə müqavimət göstərən şəxsləri Dövlət Təhlükəsizlik Xidməti araşdırmalıdır. Araşdırılsa, məlum olacaq ki, onlar hansısa kənar ölkənin xüsusi kəşfiyyat orqanına bağlıdırlar. Biz imkan verməzik ki, məscidlərimiz casus yuvasına çevrilsin. Bu məsələ araşdırılmalıdır. Nardaran hadisələri zamanı da bu kimi halların şahidi olduq və sonda hadisələr qanlı hadisələrlə bitdi".

"Bəşəriyyətin hər 4 kişisindən və 20 qadınından biri siqaret çəkir. Hər il dünyada 5,4 milyon insan tütün istehlakı nəticəsində dünyasını dəyişir. Hesablamalar bu rəqəmin 10 milyon nəfərə çatacağını deməyə əsas verir". **Milli Məclisin Sosial siyasət komitəsinin sədri Hadı Rəcəbli** Milli Məclisin müzakirəsinə çıxarılan "Tütün məhsullarının istifadəsinin məhdudlaşdırılması haqqında" qanun layihəsi haqqında məruzə edərkən bildirdi. Komitə sədri dedi ki, Azərbaycanda da vəziyyət ürəkaçan deyil: "Hesablamalara görə, 20-44 yaş kişilərin 30 faizi, 45-64 yaşlıların isə 51 faizi siqaret çəkir. Orta hesablamalara görə, onlar hər gün 16 siqaret çəkir. Artıq qadınlar arasında göstərici 1 faizə çatıb. Araşdırmalara görə, kişilərin 64,7 faizi, qadınların isə 52 fazii tütün tüstüsündən əziyyət çəkir. Özü də bu, ictimai yerlərdə baş verir. Üstəlik, şəxsi və dövlət büdcəsində milyonlarla manat ziyan dəyir. Bu, narkotikaya da aludəçilik yaradır". 17 maddə 3 fəsildən ibarət qanun layihəsi Azərbaycan əhalisinin sağlamlığının qorunması, sağlam həyat tərzinin təbliği, uşaqların və gənclərin sağlam böyüməsi və inkişafı, pis vərdişlərə aludəçiliyin profilaktikası, tütün məmulatlarının istifadəsinin və tütün tüstüsünün ətraf mühitə zərərli təsirlərinin azaldılmasının hüquqi əsaslarını müəyyən edir. Qanun layihəsində tütün çəkilməsinə icazə verilməyən yerlər konkretləşdirilib.

**Deputat İlham Əliyev** Milli Məclisin foyesində siqaret çəkilməsinin qadağan olunması təklif etdi. Bildirdi ki, Prezident Administrasiyasında 10 ildən artıqdır ki, siqaretin çəkilməsinə qadağa qoyulub: "Bir müddət orada işləmişəm. Amma deyim ki, siqaretin çəkilməsi üçün yer nəzərdə tutulmayıb. Gözləmə zalında, yeməkxanada siqaret çəkilməsi qadağan edilib. Milli Məclisin foyesində də siqaret çəkilməsinə qadağa qoyulmasını təklif edirəm".

Digər çıxışlardan sonra qanun layihəsi birinci oxunuşda səsə qoyularaq qəbul edildi.

**Deputat Hikmət Babaoğlu** dedi ki, layihədə tütün məmulatlarının adları əks olunsa da, sulu qəlyanın adı çəkilməyib: "Sulu qəlyan da tütün məmulatlarından hazırlanan bir vasitədir". Layihəni təqdi edən deputat bildirdi ki, siqaret böyük, sosial bəladır, əslində siqaret çəkmək narkomaniyanın ilk mərhələsidir: "Belə bir statistika qeyd edildi ki, müəyyən yaş həddində dünyada hər 4 kişidən biri siqaret istifadəçisidir. Azərbaycanda isə hər iki nəfərdən biri siqaret çəkir".

**Layihə səsə qoyularaq, birinci oxunuşda qəbul olundu.**

❑ **Elşad PAŞASOY**



# Qurbağaların tarixi

Zamin HACI
zaminhaci@gmail.com

## "Consensus facit nuptias"

*(latın ata sözü, tərcüməsi "Kəbin razılıqdan yaranır")*

**MTN zabitlərinin məhkəmə işi haqda "Yeni Müsavat"da çıxan reportajları maraqla oxuyuram. Canlı tarix budur. Ən yaxşı ifadələr, dövrün təsvirləri şahidlərdə olur. Müqayisə üçün üzr istəyirəm (lap ABŞ prezidentinin mətbuat katibi Şon Spayserin bugünlərdə Bəşər Əsədi Hitlerlə müqayisə eləyib, sonra üzr istəməyi tipdə bir şey alındı), 1918-ci ilin mart hadisələri zamanı ermənilərin Bakıda, Azərbaycanın başqa yerlərində törətdiyi qırğınları biz indi hardan öyrənirik? Demokratik Cümhuriyyətin hesabına öyrənirik! 1918-20-ci illər respublikamız bu hadisələri araşdırmaq üçün Fövqəladə İstintaq Komissiyası yaratmışdı, həmin komissiya bütün ölkəni gəzib soyqırım şahidlərindən ifadələr almışdı. Həmin sənədlər 70 illik Sovet imperiyasının qadağalarından sonra günümüzə gəlib çatdı, biz həmin günlərdə olanları bildik.**

Misal üçün, gəlin MTN-in məhkəməsindən bu sitatı oxuyaq: "MTN polkovniki deyib ki, telefon danışıqlarını dinləyən zaman müəyyən ediblər ki, Vidadi Əzizov "Zaminbank"dan 9447 manat pul çıxaracaq: "Bundan başqa müəyyən etmişdik ki, orada ona qarşı quldurluq olacaq. Bu quldurluğun qarşısını almaq üçün Vidadi Əzizovun həbs olunmasını qərara aldıq. Mən və işçim Rəşad Əhmədov bankın "Nərimanov" filialının qarşısına gedən zaman bizə "geri çəkil, əməliyyatı xüsusi təyinatlılar keçirəcək" komandası verildi. Mən bunun səbəbini öyrənmək üçün idarə rəisi Aydın Manafovla əlaqə saxladım. O da xüsusi təyinatlıların əməliyyat keçirdiyini təsdiqlədi. Biz filialın qarşısında olanda onlar artıq əməliyyatı keçirmişdi, Vidadi Əzizovu həbs etmişdilər. Əzizovun həyat yoldaşı da orada olub. Həyat yoldaşını MTN-ə aparmaq üçün maşın olmadığından idarə rəisi ilə əlaqə saxladım, bildirdim ki, qadının izahatını almışıq, kimliyini müəyyən etmişik, lazım olsa, MTN-ə dəvət edib dindirə bilərik. İdarə rəisi razılaşdı, bundan sonra qadın sərbəst buraxıldı".

Film kimi bir şeydir. Fikir verin, adamı soymaq üçün bəhanə odur ki, "eşitdik ona qarşı quldurluq olacaq". Hazır özümüz quldurluq edək - məntiq belə deyir. Ancaq gəlib görüblər artıq başqaları soyubdur! Bir yazıq biznesmeni soymaq üçün iki dövlət bandası və bir özəl banda marığa yatıbmış (o da şübhəlidir - özəl iş çətindir). Gəlsin indi burda ala qarğa bala çıxartsın... Görüblər lələ köçüb, yurdu qalıb, deyiblər bəlkə arvadını damlayaq, ancaq buna maşın olmayıb. Burası artıq komediya janrına keçir. Misal üçün, kimisə tutub küçədəcə maşınını əlindən almaq olardı.

Quldurluğa qarşı quldurluq təzə praktika deyil. Yazıçı Rafiq Tağını da bir vaxt "tutmuşuq ki, dindarlar öldürməsin" məntiqi ilə türməyə salmışdılar. Sonra da dedilər bax, gördünüz, azadlığa buraxdıq, öldürdülər. Ən pisi odur ki, düz deyirmiş kimi görünürlər.

Sözgəlişi, bu metod dini fanatizmin uydurma üfürülməsində də özünü göstərir. İnsan azadlıqlarına qadağa qoyurlar, adı da belə olur ki, guya fanatizmin qabağı alınır. Guya bu hökumət olmasa sabitliyi dindarlar pozarlar, ay Qərb, ay Rasiya, bizi dəstəkləyin, bizdən başqası yalandır, biz az qala Xəzər xaqanlığı kimi bir şeyik, müsəlmançılığın sizin ərazilərdə yayılmasını əngəlləyirik! Bu münasibətlə hər kvartalda hansısa məscidin sökülməsi, hansısa dindara torba tikilməsi, hardasa qara bayraq qaldırmaq tipində səhnəciklər oynanılır.

Ancaq hər kəs əmin olmalıdır ki, uca millətimiz həmişə dövlətçiliyə sadiqdir. Bu, eşşək əti söhbətində də özünü göstərdi. Yadınıza gəlirsə, bir ara möhkəm qışqırışma düşmüşdü, hamı eşşək əti satanları pisləyirdi. Sizcə, bu səs-küy nə üçün yatdı? Bəlkə eşşəklər kəsilib qurtardı? Yox. Sadəcə, Kənd Təsərrüfatı Nazirliyinin heyvandarlığın inkişafı idarəsindən (bu idarənin adını oxuyan bütün heyvanlar inkişaf edir) bir qardaş telekanalizasiyaya çıxıb bəyan etdi ki, eşşək əti yemək olar, bunun zərəri yoxdur. Vəssalam. Nöqtə qoyuldu. Qurbağa gölünə daş atıldı.

Çünki biz dövlətçiliyə sadiq adamıq. Dövlət istəsin, lap qurbağa əti də yeyərik. Quruldaşa-quruldaşa.

# Moskva ilə gizli oyun: "kartları" kim paylayır?

**Ermənistanda 2 aprel parlament seçkilərindən sonrakı gərginlik davam edir. Bu gərginlik seçkilərin nəticələrinin saxtalaşdırılması, bütövlükdə seçki kampaniyasının hakimiyyətin və Moskvanın nəzarəti altında keçməsi ilə bağlı olmaqdan savayı, həm də ölkənin yeni baş nazirinin kimliyi ətrafındakı qeyri-müəyyənliklə əlaqədardır.**



## Ermənistanda "Varis" əməliyyatı - Bakı üçün də kritik gözlənti

### Prezident-baş nazir toqquşmasından kim qalib ayrılacaq? İşğalçı ölkədə hakimiyyətdaxili intriqalar qızışır; Rusiya yekun "dobro"nu "müharibə partiyası"nın ideoloqu Sərkisyana verəcək, yoxsa texnokratlara...

Məlumdur ki, son seçkilərlə Ermənistan prezident üsul-idarədən parlament tipli idarəçiliyə keçidə start verib. Bu səbəbdən gələn il prezident Serj Sərksiyan öz postundan gedəndən sonra ölkədə əsas səlahiyyətlər baş nazirə keçəcək. O baş nazir ki, bu günlərdə onu yeni parlament təsdiq etməlidir. Erməni KİV-lərinin yazdığına görə, Sərkisyan rejimi bu postda heç də indiki baş nazir Karen Karapetyanı görmək fikrində və həvəsində deyil, çünki əslində həmin postda elə özünü görür.

"Karapetyan üçün situasiya doğrudan da fövqəladədir. Əgər buna kimi o, öz reytinqi hesabına özünə qarşı ictimai rəğbət yarada bilirdisə, seçkilərdən sonra dəyişiklik gətirməyən hər bir gün onun əleyhinə işləyir. Bu isə o deməkdir ki, hər ötən gün onun üçün baş nazir postunda sonuncu ola bilər - xüsusən də Serj Sərkisyanın son prezidentlik günü yaxınlaşdıqca", - deyə bu xüsusda Lragir.am saytı yazıb.

Ermənistanda hesab edirlər ki, Serj Sərkisyanla hakimiyyət uğrunda mübarizədə situasiyanı fövqəladə rejimlə dəyişə və bundan ötrü də onun üçün platforma rolunda texnokratlar komandası çıxış edə bilər - hansı kadrlar ki, Karapetyan baş nazir təyin olunduqdan sonra hökumətə gətiriliblər.

***

Baş nazirlik uğrunda hakimiyyətdaxili mübarizənin və siyasi intriqanın bir mühüm elementi də rəsmi rəqəmlərə görə, seçkidə qalib gəlmiş hakim Respublikaçılar Partiyası ilə 3-cü yer tutmuş "Daşnaksütyun" partiyası arasında hökumətdə əməkdaşlıqda bağlı danışıqların başlamasıdır. Bəlli olub ki, 2018-ci ildə - Sərkisyanın prezident müddəti başa çatandan sonra "Daşnaksütyun" onun baş nazir postu tutmasına etiraz eləmir.

"2 aprel seçkiləri göstərdi ki, Serj Sərkisyan özünə sərfəli hakimiyyət strukturları və status-kvo yaratmaq üçün zərgər dəqiqliyi ilə işləyib. Parlamentə 4 siyasi qüvvə keçib. Hakim partiyaya məxsus çoxluq hökumətin formalaşmasını Tsarukyan (2-ci yer tutub-red.) və "Çıxış" bloku ilə birgə həyata keçirəcək və bununla da geniş xalq kütlələrinin narazılığından bir növ "sığortalanacaq". "Daşnaksütyun" isə bu prosesdə "sanitar" rolunu oynayacaq" - erməni KİV-i yazır. Bu zaman bəzi analitiklər hesab edirlər ki, bütün bunların nəticəsində indiki baş nazir Karen Karapetyan Serj Sərkisyanın tam asılılığına düşəcək.

***

"Ermənistanda "Varis" əməliyyatı başlayır və çətin ki, belə bir varis qismində Sərkisyan indiki baş nazir Karapetyanı görsün". Musavat.com-un məlumatına görə, bu barədə rusiyalı tanınmış politoloq Vadim Dubnov rusdilli Haqqin.az nəşrinə Ermənistandakı siyasi durumu şərh edərkən bildirib.

"Həqiqətən də Karapetyanln durumu birmənalı deyil. Baş nazir postundakı Karapetyan təbii ki, öz vəzifəsindən getməkdə olan və gələcəyini düşünən Serj Sərkisyana heç də məmnunluq bəxş eləmir", - deyə ekspert qeyd edib. Onun sözlərinə görə, hara fırlatsan, Ermənistan istənilən halda "Varis" əməliyyatına yaxınlaşıb.

"Sərkisyanın fikrincə, belə bir varis heç vəchlə Karen Karapetyan ola bilməz. Ona görə də istisna deyil ki, tez bir zamanda tədricən maraqlı qüvvələrin mozaikası formalaşacaq və intriqa və siyasi alverlər başlayacaq - o cümlədən də Moskva ilə", - deyə politoloq əlavə edib.

***

Ancaq aydındır ki, bu məsələdə son söz Serj Sərksyana deyil, Ermənistanın sahibi Rusiyaya, daha dəqiqi, prezident Vladimir Putinə məxsusdur. Bəs, Putin yekun "dobronu kimə verəcək - hazırkı prezident, "müharibə partiyası"nın parlaq siması S.Sərksiyana, yoxsa onun əsas rəqibi sayılan, de-fakto Rusiyanın adamı olan Karen Karapetyana?

Əksər müşahidəçilərə görə, seçim anında Kreml hər halda S.Sərkisyana "yaşıl işıq" yandıra bilər. Ən azı ona görə ki, Sərkisyan Moskva üçün sınaqdan çıxmış birisidir və öz mütiliyini, Rusiyaya sədaqətini dəfələrlə sübut edib. Ancaq o zaman bu, həm də o anlama gələcək ki, Rusiya Ermənistanda "müharibə partiyası"na stavka etməkdə davam edir və Qarabağ məsələsinin sülh yolu ilə həllində maraqlı deyil. Demək, Azərbaycan da özü üçün nəticə çıxarmalı olacaq. Bakı üçün "Varis" əməliyyatı ilə bağlı kritik gözlənti də elə budur.

❑ Siyasət şöbəsi

## "ABŞ beynəlxalq hüququ və BMT nizamnaməsini kobud şəkildə pozub" - Lavrov

**"Moskva, Dəməşq və Tehran ABŞ-ın Suriyaya raket zərbələrini təcavüz aktı kimi qiymətləndirib".**



Sergey Lavrov

APA-nın Moskva müxbirinin verdiyi məlumata görə, bunu Rusiya xarici işlər naziri Sergey Lavrov iranlı və suriyalı həmkarları ilə keçirdiyi üçtərəfli görüşün yekunlarına dair mətbuat konfransında bildirib.

"Üçtərəfli formatda dialoq artıq ənənə halını alıb. Görüşdə ABŞ-ın hərbi aerodroma raket zərbələrindən sonra Suriyada yaranan vəziyyəti müzakirə etdik. Mövqelərimizi bir daha təsdiq etdik, mövqeyimiz eynidir. Bu mövqe ondan ibarətdir ki, ABŞ beynəlxalq hüququn prinsiplərini və BMT ttp://apa.az/tag/BMT nizamnaməsini kobud şəkildə pozub", - deyə Rusiya XİN başçısı söyləyib.

Lavrov bildirib ki, Rusiya, Suriya və İranın Suriyada kimyəvi silah hücumu ilə bağlı insidentin Kimyəvi silahların qadağan olunması üzrə Təşkilat (OPCW) tərəfindən diqqətli araşdırılmasına təkid edir.

**Rusiya XİN başçısı ABŞ-ın raket zərbələrinin Suriyada sülh prosesini pozmağa və hakimiyyəti dəyişməyə istiqamətləndiyini bildirib. O, ABŞ-ın cəhdlərinin uğurla nəticələnməyəcəyini söyləyib:** "Bu aksiya açıq-aydın Suriyada hakimiyyəti devirmək üçün bəhanə axtarmağa istiqamətlənib. Bu cəhdlər uğurla nəticələnməyəcək. Rusiya BMT Təhlükəsizlik Şurasının 2254 saylı qətnaməsinin tələbləri, o cümlədən Suriyanın ərazi bütövlüyünə və suverenliyinə ciddi hörmət edilməsinə təkid edəcək. Hamıya məlumdur ki, beynəlxalq hüququn pozulması qəbuledilməzdir".

YENİ MÜSAVAT
N 78 (6692) 15 aprel 2017

**“İtaliyada TAP-ın tikintisi ilə bağlı bir sıra çətinliklər hələ də qalır”. Bunu energetika naziri Natiq Əliyev ABŞ-ın Azərbaycandakı səfiri Robert Sekuta ilə görüşündə deyib.**




# TAP-ın taleyi necə olacaq....

## Nazir Natiq Əliyev də yaranmış vəziyyətdən narahatdır; **Vüqar Bayramov:** “Son qərarı İtaliya məhkəməsi verəcək”

R.Sekuta “Cənub Qaz Dəhlizi” layihəsinin gedişi ilə də maraqlanıb. N.Əliyev səfiri layihə üzrə görülən işlər və mövcud çətinliklər barədə məlumatlandırıb. Qeyd olunub ki, “Şahdəniz - Mərhələ 2", "Cənub Qafqaz Boru Kəmərinin Genişləndirilməsi", “Trans-Anadolu” qaz boru kəməri" layihələri üzrə işlərin gedişi qənaətbəxş səviyyədədir. Lakin İtaliyada “Trans-Adriatik” qaz boru kəmərinin tikintisi ilə bağlı bir sıra çətinliklər hələ də qalır.

Nazir bu problemlərin “Cənub Qaz Dəhlizi” layihəsinin vaxtında yekunlaşmasına mümkün təsirlərindən narahatlığını ifadə edib. İtaliyanın iqtisadi inkişaf naziri Karlo Kalendanın TAP layihəsi ilə bağlı mövqeyini yüksək qiymətləndirən N.Əliyev “Cənub Qaz Dəhlizi” Məşvərət Şurası çərçivəsində nazirlərin üçüncü görüşünün işlərin sürətlənməsinə və prosesin irəliləməsinə töhfə verdiyini də vurğulayıb. Səfir isə ABŞ-ın “Cənub Qaz Dəhlizi” layihəsinin icrasını daim diqqətdə saxladığını və bu dəstəyin davamlı olduğunu bildirib.

TAP layihəsi ilə bağlı yaşanan problemləri dəyərləndirən **iqtisadçı-ekspert Vüqar Bayramov** “Yeni Müsavat”a açıqlamasında bildirdi ki, bu, Azərbaycan üçün də ciddi bir problemdir: “Söhbət TAP kəmərinin reallaşmasına qarşı olanlardan gedir. Bu kəmərin reallaşması zamanı ekoloji standartların gözlənməsi vacibdir. Azərbaycan da ekoloji standartların gözlənməsində maraqlı olan tərəfdir. Burada əsas məsələ 221 zeytun ağacının köçürülməsidir. İtaliya hökuməti heç bir zeytun ağacına ziyan vurmadan onların köçürülməsinə söz verib. Amma son məlumatlar göstərir ki, bu ağacların köçürülməsində problem yaşanır. İtaliya hökuməti bu məsələnin problemsiz şəkildə həll olunacağını bildirib. Lakin hələ ki, razılıq əldə etmək mümkün olmayıb”.

**Ekspert qeyd etdi ki, aprelin 19-da keçiriləcən məhkəmədə bu haqda müsbət qərar qəbul edilməsə proses yubanacaq:** “Çünki artıq isti havalar başlanır. Bu zaman isə ağacların köçürülməsi mümkün deyil. O zaman ağaclar quruya bilər. Əgər aprelin 19-da ağacların köçürülməsi ilə bağlı qərar qəbul edilməsə bu artıq prosesin payıza qədər yubanması anlamına gələcək. O vaxta qədər TAP-la bağlı aparılan işlər dayandırılacaq.

İstənilən halda ekoloji standartların qorunması vacibdir və kimsə bunun əleyhinə çıxış etmir. Ancaq müşahidələr onu göstərir ki, Azərbaycan mavi qazının Avropaya çıxarılmasında maraqlı olmayan qüvvələrin fəaliyyəti daha çoxdur. Konkret olaraq hansısa şirkətləri və ya qrupları ittiham etmək çətindir. Söhbət Azərbaycan mavi qazının Avropaya daşınmasında, Avropanın enerji təhlükəsizliyinin şaxələnməsində maraqlı olmayan şirkətlər və qüvvələr bu faktordan istifadə etməklə TAP-ın icrasını yubatmağa çalışırlar və artıq bu özünü göstərir".

**V.Bayramovun sözlərinə görə, Azərbaycanın bu prosesə müdaxilə etmək imkanları zəifdir:** “Çünki ekoloji məsələdir və İtaliya ərazisində baş verir. İndiki məqamda TAP-la bağlı proseslərə texniki baxımdan müdaxilə imkanları yoxdur. Bu Azərbaycan hökumətinin səlahiyyətində olan məsələ deyil, birbaşa İtaliya hökumətinin səlahiyyətində olan məsələdir. İndiki halda Azərbaycan sadəcə prosesləri izləmək və diplomatik vasitələrdən istifadə etməklə prosesin sürətləndirilməsinə çalışa bilər. Təbii ki, son qərarı İtaliya məhkəməsi verəcək”.

**İqtisadçı onu da bildirdi ki, TAP-ın qurudakı hissəsinin tikintisi geciksə, bu bütövlükdə Cənub Qaz Dəhlizi layihəsinin yubanmasına səbəb olacaq:** “Azərbaycan Cənub Qaz Dəhlizi layihəsinin yubanmasında maraqlı deyil. Çünki 2020-ci ilədək Azərbaycan mavi qazı Cənub Qaz Dəhlizi vasitəsilə Türkiyə bazarına çıxacaq. Əgər burada hər hansı yubanma baş verərsə, bu Azərbaycan mavi qazı hədəflənən vaxtda Avropa bazarına çıxmasında əngəllər yarada bilər”.

ABŞ səfiri ilə Azərbaycan energetika nazirinin görüşünə gəlincə, Vüqar Bayramov bildirdi ki, diplomatik kanallardan istifadə etməklə prosesə təsir etmək mümkündür.

**TAP əleyhinə aksiyaların başlamasında Rusiyanın əlinin olması fikrinə toxunan ekspert qeyd etdi ki, ehtimallar olsa da, bunu müəyyənləşdirmək çətindir:** “Rusiya Azərbaycan mavi qazının Avropa bazarına çıxmasında maraqlı olmayan tərəf kimi qiymətləndirilə bilər. Çünki "Qazprom" hazırda Avropa bazarında dominantdır. Ancaq burada Rusiyanın təsir imkanları və ya “Qazprom”un iştirakının olub-olmamasını müəyyənləşdirmək çox çətindir. Hər halda Rusiyanın Avropa bazarına başqa bir şirkətin daxil olmasında maraqlı olmasını söyləmək də çətindir. Bu prosesdə Rusiyanın rolunun olmasını qiymətləndirmək də o qədər asan deyil".

❑ **Nərgiz LİFTİYEVA**

# Bəşər Əsəd üzə çıxdı və “kimyəvi silahım yoxdur” dedi

## **Elxan Şahinoğlu:** “Əsəd Səddam Hüseynin aqibətini təkrarlamasa belə...”

**Suriya prezidenti Bəşər Əsəd hakimiyyətinin əlində kimyəvi silahların olmadığını bəyan edib. Prezidentin sözlərinə görə, Suriya ordusu bütün kimyəvi silahları təhvil verib. O “France-Presse” Agentliyinə verdiyi müsahibədə bəyan edib ki, İdbildəki kimyəvi hücumun Dəməşqə heç bir aidiyyəti yoxdur. Əsəd iddiaların Amerikanın uydurması olduğunu bildirib. “Belə təsəvvür yaranır ki, terrorçuların ”silahdaşı" olan Birləşmiş Ştatlar bütün bu “tarixçə”ni ona görə uydurub ki, Suriyanın aviabazasına zərbə endirmək üçün əlində bəhanə olsun"deyə, Əsəd qeyd edib.**

“Biz, kimyəvi silaha malik deyilik. Bir neçə il bundan əvvəl bütün ehtiyatlarımızdan imtina etmişik. Hətta belə silahımız olsaydı da biz, heç vaxt ondan istifadə etməzdik” - Əsəd bildirib.

Qeyd edək ki, Əsədin dedikləri Amerikanın Suriyanın aviabazasına zərbə endirdiyi ilk günlərdən dünya tərəfindən daha çox səsləndirilən iddialardan biridir. Azərbaycanda da tez-tez İdlibdə kimyəvi silahdan istifadə edilməsində rəsmi Vaşinqtonun əlinin olduğu barədə fikirlərə rast gəlirik. Hətta Amerikanın B.Əsədi Səddam Hüseynin gününə salmaq üçün bu varianta əl atdığı vurğulanır.

Suriya hökuməti tərəfindən Amerika prezidenti Donald Trampın Əsədi heyvan adlandırmasına da reaksiya verilib. Bununla bağlı Suriya XİN rəhbərinin köməkçisi Ayman Sussan danışıb.

Sussan deyib: “Əgər siz özünüz heyvansınızsa, hamının belə olduğunu düşünmək lazım deyil. Bəşər Əsəd suveren dövlətin prezidentidir. Onu xalq seçib. Əsədə xarakteristikanı Tramp yox, Suriya xalqı verə bilər”.



Politoloq Elxan Şahinoğlu Əsəd rejiminin kimyəvi silahlardan istifadə etdiyini iddia etmir: “Bəşər Əsəd kifayət qədər vətəndaşını qətl edib. Bu gün Suriyada nə baş verirsə, bunun əsas məsuliyyətini Bəşər Əsəd daşıyır. Çünki dövlətin başında o dayanır, baş verənlərə görə məsuliyyət daşıyır. Birinci dəfə kimyəvi silahdan da məhz onun ordusu bir neçə il əvvəl istifadə etmiş, minlərlə insan həlak olmuşdu. Bu dəfə kimyəvi silahdan məhz Əsəd ordusunun istifadə etdiyini iddia etmirəm. Məntiqlə bu Əsədə lazım deyildi. Ancaq kim zəmanət verə bilər ki, hansısa general Əsədin əmri olmadan kimyəvi silahdan istifadəyə təkbaşına qərar verməyib? İndi də deyirlər ki, guya Suriyanın hərbi təyyarələri terrorçuların anbarlarını partladarkən kimyəvi toz ətrafa yayılıb və insanlar buna görə həlak olub. Bu versiyalar öyrənilməlidir. Ona görə də beynəlxalq araşdırma qrupunun təsisinə ehtiyac var ki, onlar baş verən hadisəni yerində diqqətlə araşdırsınlar. ABŞ prezidenti Donald Tramp Suriyaya hava zərbəsi endirməyə ehtiyac duyurdu. Bu bombardmanla o bir neçə hədəfinə çatdı. Birincisi, raket zərbəsi ilə yerlərdə sürünən reytinqini artırdı. İkincisi, ”Rusiyanın adamı" olmadığını sübut etdi. Üçüncüsü, istənilən an cəsarətli qərarlara hazır olduğunu və bu mənada keçmiş prezident Barak Obamadan fərqləndiyini göstərdi. Ancaq bu o demək deyil ki, Əsədin dediyi doğrudur, yəni Tramp Suriyaya zərbə endirmək üçün bəhanə axtarırdı və kimyəvi silahdan istifadə hadisəsi baş verməyib. Televiziya kanallarında yayılan görüntülər var, insanlar qəlpələrdən deyil, zəhərdən ölüblər və bu görüntülər Trampa pis təsir edib və o bombardmanla bağlı emosional durumda qərar verib. Tramp bundan sonra daha bir doğru addım atdı. Amerika ən ağır bombasını Əfqanıstana ataraq terrorçuların yuvasını dağıtdı. Bununla Tramp göstərdi ki, o yalnız Əsədə qarşı deyil, Əfqanıstandakı terrorçulara qarşı da qəti addımlar atmağa hazırdır. Əgər Trampın Suriya ərazisini raket atəşinə tutmasını Kreml tənqid etdisə, Əfqanıstana atılan bombaya etiraz etmədi. Çünki hədəf terrorçular idi".

Politoloq bütün hallarda Əsədin hakimiyyətinin süqut edəcəyini düşünür: “Bütün hallarda Əsəd hakimiyyətini qoruya bilməyəcək. Suriya 4-5 yerə bölünüb, yüz minlərlə insan həlak olub və buna görə Əsəd bir dəfə də olsun başsağlığı verməyib. Məsələn, son kimyəvi silahdan istifadəni götürün. Əsəd deyir ki, bunu mən etməmişəm, tutaq ki, bu belədir. Axı kimyəvi silahdan istifadə zamanı yüzlərlə mülki insan həlak olub, hamısı Suriya vətəndaşıdır, heç olmazsa onların ölümündən təəssüf hissi keçirdiyini bildirərdi. Əsəd Səddam Hüseynin aqibətini təkrarlamasa belə, hər halda indiki şərtlər daxilində onun uzun müddət hakimiyyətdə qalacağını da düşünmürəm. Onun yeganə alternativi ya İranda, ya da Rusiyada siyasi sığınacaq istəməsidir və hadisələr buna doğru gedir. Üçüncü variant da var. Ona qarşı sui-qəsd də həyata keçirilə bilər”.

**E.Şahinoğlu Trampın Əsədə heyvan deməsinə bu cür münasibət sərgilədi:** “Donald Tramp ənənəvi siyasətçi deyil, düşündüyünü deyir, impulsiv qərarlar verir. Elə bu xasiyyətinin nəticəsidir ki, Əsədi heyvan adlandırıb. Bu ifadənin işlədilməsi həm də o deməkdir ki, Tramp prezidentik müddəti bitənə qədər istənilən yolla Əsədi bitirməyə çalışacaq. Əks halda seçiciləri ondan soruşacaqlar ki, birinə heyvan dediyin şəxsin şıltaqlıqlarına nə çox dözdün?”

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 78 (6692) 15 aprel 2017



# Xaricə üz tutub qayıdan mühacirlər həbs edilə bilər

**Əsabəli Mustafayev:** "Belə şəxslər gözaltına alınırlar..."



**Azərbaycanı tərk edərək siyasi sığınacaq almaq üçün Avropaya üz tutan azərbaycanlıların sayının son zamanlarda artdığı müşahidə olunur. Həmin şəxslərin oturum ala bilməyib, öz ölkələrinə qayıtdıqdan yaxud deportasiya edildikdən sonra hansı cəzaları ala biləcəkləri sual doğurur.**

Azərbaycan qanunvericiliyində də bununla bağlı konkret bir müddəa yoxdur. İndiyə qədər isə hər hansı bir mühacirin ölkəsinə qayıtdıqdan sonra hansı cəzalarla üzləşdiyi ilə bağlı fakta rast gəlmək çətindir. Amma bununla belə, qayıdarlarsa onları nə gözlədiyi suallar doğurur.

**Hüquqşünas Əsabəli Mustafayev** hansı hallarda bu tipli şəxslərin cəza ala biləcəkləri ilə bağlı "Yeni Müsavat"a bunları dedi: "Əgər istənilən şəxs orada dövlətə qarşı hər hansı bir cinayət əməlinə yol verməyibsə, qayıtdıqdan sonra məsuliyyətə cəlb oluna bilməz. Yox əgər xarici dövlətdə Azərbaycanın məxfi sirlərini açıqlayarsa, dövlətə qarşı hər hansı bir cinayət əməlinə yol verərsə, o zaman məsuliyyətə cəlb edilməsi mümkündür. Amma indiyə qədər xaricə gedib qayıdan bu tipli şəxslərin hər hansı bir cəza alması ilə bağlı fakt yoxdur. Lakin öz təcrübəmdən çıxış edərək deyə bilərəm ki, belə şəxslər gözaltına alınırlar, daim nəzarətdə, basqı altında olurlar. Geri qayıdanların əksəriyyəti siyasi fəallar olurlar. Xaricə çıxmayanlar da basqı altında olurlar. Hökumət hərəkətlərini onunla əsaslandıra bilər ki, ola bilsin, həmin şəxslər xaricdə hansısa orqanlar tərəfindən Azərbaycana qarşı fəaliyyətə təhrik edilsinlər, buna "verbovka" deyirlər. Məsələn, Almaniyada hökumət orqanlarının deyil, hər hansı bir radikal dini qrupların təsiri altına düşə bilərlər. Azərbaycana qayıdandan sonra isə müəyyən əməllər törədə bilərlər. Burada müəyyən həqiqətlərin olduğunu da demək mümkündür. Hər halda, belə məsələlər araşdırılmalıdır. Həmin insanların nə üçün gedib qayıtdıqları araşdırılmalıdır. Çünki üzə çıxmalıdır ki, o şəxslər özləri qayıdıblar, yoxsa verilən sifarişləri yerinə yetirmək üçün geri dönüblər. Amma sadəcə deportasiya olunublarsa, düşünürəm ki, hökumət bu məsələyə loyal yanaşmalıdır. Məsələn, Rusiyadan çoxsaylı şəxslər qanunları pozduqlarına görə deportasiya edilirlər. Mühacirlərin geri qayıtması və hansı hallarla üzləşdikləri barədə açığı məndə dəqiq bir məlumat yoxdur. Amma bilirik ki, Suriya və digər yerlərdə döyüşməyə gedənlər Azərbaycana qayıtdıqdan sonra məsuliyyətə cəlb olunublar. Orada müxtəlif maddələr var. Burada muzdluluq, qanunsuz silahlı birləşmələrdə iştirak, qanunsuz silah saxlama kimi cinayətlər var. Ərəb ölkələrindən qayıdanlara daha çox cəzalar tətbiq olunur. Avropadan gələnlərlə bağlı sadəcə ehtimallar səsləndirə bilərik. Casusluq, dövlət sirrini yayma kimi hallar daha çox ola bilər".

❑ **Cavanşir ABBASLI**

# Dünyanın ən təhlükəsiz ölkəsi

**Finlandiya dünyanın ən təhlükəsiz ölkəsi seçilib. Axar.az xəbər verir ki, bu nəticə Ümumdünya İqtisadiyyat Forumunun apardığı tədqiqatdan sonra ortaya çıxıb. Reytinqdə ikinci pilləni Birləşmiş Ərəb Əmirlikləri tutub. İslandiya ilə ilk üçlük tamamlanıb.**

Salvador, Yəmən və Kolumbiya isə dünyanın ən təhlükəli ölkələri sayılıb.

Qeyd edək ki, hazırlanan siyahıda 136 ölkənin adı yer alıb.

**Azərbaycan Avropa Hərəkatının prezidenti Ramin Hacılı "Yeni Müsavat"a müsahibəsində son günlər AXCP üzvləri ilə yaşadığı qalmaqaldan danışıb. R.Hacılı AXCP ilə bağlı bir sıra məqamları açıqlayıb, baş verənlərə aydınlıq gətirib. Onunla müsahibəni təqdim edirik.**

# "AXCP-nin ən yaxşı bacardığı iş şər-böhtan atmaqdır"

**Ramin Hacılı:** "Saxta sənədlərə görə Əli Kərimlini həbs gözləyir, ona görə... mənim də adımı hallandırırlar"



***- Ramin bəy, bir az öncə eviniz yanmışdı. Hazırda vəziyyət nə yerdədir?***

- Fövqəladə Hallar Nazirliyinin istintaq qrupu hadisə ilə bağlı təhqiqat aparır. Təhqiqatın nəticəsi bizə təqdim olunacaq. Bundan başqa Nizami Rayon İcra Hakimiyyətinə və Qaçqın və Məcburi Köçkünləri işləri üzrə Dövlət Komitəsinə də müraciət etmişik. Onlardan da hələ ki cavab gözləyirik. Yəni bu işlə bağlı gözləmə mövqeyindəyik.

***- AXCP üzvləri tərəfindən sizin saxta partiya sənədi düzəldərək azərbaycanlıların Avropaya mühacirət etməsinə şərait yaratmanız iddia edilir. Bu iddiaya münasibətinizi bilmək istərdik.***

- Birincisi, onu qeyd edim ki, o partiyanın möhürü ya sədrdə, ya da sədrin etibar etdiyi kimdəsə olur. Əli Kərimli heç zaman öz möhürünü mənə etibar etməyib. Bu baxımdan onun möhürünün məndə olma ehtimalı da yoxdur. Avropada da oturum üçün müraciət edən şəxslərin təqdim etdikləri sənəddə saxta möhür olarsa, onları faciə gözləyər. Ona görə də düşünürəm ki, sosial şəbəkədə bu məsələni işıqlandıran Gözəl Bayramlı yaxşı araşdırsın ki, möhürü kimə verib və bu işləri hansı şəxslər görüblər. Təbii ki, o zaman hər şey ortaya çıxar. Baxın, burada məsələ ondan ibarətdir ki, AXCP-nin sədri təhlükə altına düşüb. Çünki bu saxta sənədlərə görə onu həbs gözləyir. Bundan yayınmaq üçün bir neçə ay öncə Razi Nurullayevin adını hallandırıb, onun üstünə atdılar, daha sonra bir neçə şəxsin bu məsələdə adını çəkdilər, indi də növbə mənə çatıb. Mənim adımın hallandırılmasının səbəbi ondan ibarətdir ki, bizim turizm və xaricdə təhsil şirkəti var. Ora gedən insanlardan soruşurlar ki, sizin vizanızı kim alıb. O da cavab verir ki, filan şirkətdən Ramin Hacılı bizə konsultasiya edib. Cəbhəçilər də fikirləşiblər ki, Ramin Hacılı da bu işlə məşğuldursa, onun da adını hallandıra bilərik. Bundan başqa heç bir qənaətə gələ bilmədim. AXCP-nin Azərbaycanda ən yaxşı bacardığı iş şər-böhtan atmaqdır. Bundan başqa isə heç bir fəaliyyətlərinin şahidi deyilik. Ancaq şər və böhtanla məşğuldurlar.

***- Kimlərsə sizə oturum almağa yardım etmək üçün müraciət edibmi?***

- Sosial şəbəkələrdə yazılan rəylərdə də AXCP-nin üzvləri qeyd edirlər ki, biz Ramin Hacılıya bu barədə müraciət etmişdik, nə qədər çalışsaq da o, "qarmağa" düşmədi. Yəni bunu özləri də etiraf ediblər. Təbii ki, cəhd etsələr də, cəhdləri puça çıxıb, əllərində də fakt yaranmayıb. Bu rəyləri oxuyanda Gözəl Bayramlı da başda olmaqla bütün partiya rəhbərliyi gərək ki, məsələnin mahiyyətini biləydilər.

***- AXCP rəhbərliyi ilə daha öncə aranızda hər hansı bir anlaşılmazlıq olubmu? Birdən-birə sizi nə üçün hədəfə aldılar?***

- AXCP rəhbərliyi ilə aramızda bundan öncə də bir neçə dəfə anlaşılmazlıq olub. 2008-ci ildə bizim İran səfirliyi qarşısında aksiyamız olmuşdu. O zaman AXCP Gənclər Komitəsi bizi hakimiyyətə qarşı yox, İrana qarşı fəaliyyət göstərməkdə ittiham etmişdi. Bizə qarşı "hakimiyyəti niyə söymürsünüz" ittihamları ilə hücuma keçib, cavablarını da almışdılar. Daha sonra isə 2012-ci ildə mən Azərbaycan Avropa Hərəkatının prezidenti olub, Brüssel tərəfindən tanınanda həmin partiya yenə qıcıqlanmışdı. Çünki onların hədəfləri o qurumu almaq idi. Hətta Qənimət Zahidin sənədləri də Beynəlxalq Avropa Hərəkatına təqdim olunmuşdu. Ancaq o keçmədi, mən keçdim. Beynəlxalq Avropa Hərəkatının prezidenti Bakıya gələndə də məni ləkələməyə çalışırdılar. Daha sonra isə mən onları çox sərt formada qınayıb, ittiham etdim. Sonuncu dəfə 2014-cü ildə mən Ümid Partiyasına keçən ərəfədə siyasi fəaliyyətimi partiyada davam etdirmək və deputatlığa namizədliyimi verməm üçün təkliflə çıxış etmişdilər. Bu təkliflərinə də yox deyib, Ümid Partiyasını və "125-lər" klubunu seçdim. İndi yenə də hücuma keçiblər. Hətta "Azadlıq" qəzetində mənim guya seçkiləri saxtalaşdırmam barəsində də yazı yazdılar. Bu cür hallar daima olur. Çünki həmin partiya hər şeyə bolşevik təfəkkürü ilə yanaşır. "Kim bizdən deyilsə, düşmənimizdir" prinsipi ilə fəaliyyət göstərirlər. Həm beynəlxalq, həm də yerli ictimaiyyət arasında yalnız özlərinin təmiz, ana müxalifət olmalarını göstərməyə çalışırlar.

***- Tez-tez qalmaqallara çəkilirsiniz. Bir neçə il öncə də Müsbət Dəyişiklik gənclər hərəkatının rəhbəri Bəxtiyar Hacıyevlə qalmaqalınız olmuşdu. Onunla münasibətiniz indi necədir?***

- Mən heç zaman kimləsə səbəbsiz, durduğu yerə konfliktə getmirəm. Konfliktlərdən qaçan adamam. Mənim sadəcə olaraq bir niyyətim var. Bu da ondan ibarətdir ki, Azərbaycanda biz hamımız xoşbəxt olub, vətənimizdə yaşayaq. Ölkə olaraq onsuz da bizim kifayət qədər düşmənlərimiz var. Düşünürəm ki, bu baxımdan bir-birimizə düşmən olmamalıyıq. Bəxtiyar Hacıyevlə konfliktim olubsa, deməli, ilk addımı atan o olub. Buna əmin ola bilərsiniz. Mən də onun layiqli cavabını verdim və o susdu. Növbəti addımı nə olacaqsa, cavabını da alacaq. Yalnız mənə qarşı edilənlərin cavabını verirəm. Heç kimlə düşmənçiliyə getmirəm. Bu günə qədər hər hansı xarici ölkələrdən, yüzlərlə təklif almışam ki, hər hansı ölkədə oturum, Azərbaycanı "baltalayım". Ancaq bu yolları seçməyib, vətənimdə qalmağı, dövlətimə, ölkəmə xidmət yolunu seçmişəm. Bütün səfərlərdən də vaxtlı-vaxtında Azərbaycana qayıdıb, fəaliyyət göstərməyə çalışmışam. Çox təəssüf ki, bunu qiymətləndirmirlər. Mən burada çəkdiyim əziyyətin əvəzində hər hansı bir ölkəyə gedib, orada çox rahatlıqla yaşaya bilərdim. Getmək imkanım bu gün də var, daha öncə də olub. Ancaq vətənimi seçmişəmsə, burada nələrsə etməyə çalışırsamsa, deməli, bu qiymətləndirilməli, bunun üçün yollar açılmalıdır. İndiyə qədər mühacirətə getməyi düşünməmişəm və getmək fikrim də yoxdur. Düşünürəm ki, dünyanın hər bir ölkəsində baş verən proseslərdə uğurun səbəbi, həmin ölkənin vətəndaşlarının mühacirət, və ya intihar yolunu deyil, vətənləri üçün nələrsə etmək yolunu tutmalarından başlayıb. Hesab edirəm ki, Azərbaycanı nə "Human Rights Watch" nə beynəlxalq təşkilatlar, nə də hər hansı tarixi dövlət düzəltməyəcək. Azərbaycanı xalqımız öz dövləti, müxalifəti, iqtidarı, ictimai birlikləri ilə həmrəy şəkildə bir-birinə sevgi bəsləyərək gücləndirməlidir.

❑ **Əli RAİS**

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 78 (6692) 15 aprel 2017



# Qarabağa dair "incə diplomatik oyun" - Moskva kompromisli sülhdən niyə qaçır?

## Problemin həllini əngəlləyən problem: Kreml ixtilafı nə özü çözür, nə də başqasına imkan verir; rusiyalı analitik: "Putin dönəmində konfliktin hərbi həll yolu yoxdur"; işğalçı ölkənin üçüncü cəhdi: KTMT baş katibliyi erməniyə həvalə olunacaqmı?..

**Aprel ayında Dağlıq Qarabağ mövzusuna aidiyyəti olan daha bir hadisə gözlənilir. Söhbət "Rusiya NATO-su" adlandırılan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına (KTMT) yeni baş katibin seçilməsindın gedir. Məsələ ondadır ki, rotasiya qaydasında bu postu Rusiyadan sonra Ermənistan nümayəndəsi tutmalıdır. Lakin KTMT-yə üzv dövlətlərin 3 toplantısı keçirilsə də, həssas məsələdə konsensus əldə olunmayıb.**




Bəzi versiyalara görə, Ermənistan nümayəndəsinin bu postu tutmasına Azərbaycanla isti əlaqələrə malik Qazaxıstan və Belarus liderlərinin mövqeyi mane olur. Bəs bu dəfə necə olacaq?

Qeyd edək ki, dünən - aprelin 14-də Bişkekdə KTMT-yə üzv ölkələri (Rusiya, Belarus, Qazaxıstan, Qırğızıstan, Tacikistan, Ermənistan) başçılarının növbəti toplantısı keçirilməli idi. Eyni gündə Avrasiya İqtisadi Birliyinin dövlət başçıları səviyyəsində Avrasiya Ali İqtisadi Şurasının iclası nəzərdə tutulurdu.

*****

Sözsüz ki, KTMT-yə yeni baş katibin gətirilməsində Rusiya rəhbərliyinin, özəlliklə də prezidenti Vladimir Putinin mövqeyi həlledici olacaq. Bütövlükdə aydındır ki, postsovet məkanında bu kimi məsələlərin hamısı, o sırada konfliktlərin həlli müstəsna olaraq Kremlin inhisarındadır. Həmçinin Dağlıq Qarabağ münaqişəsinin necə yoluna qoyulması illərdir Moskvanın iradəsindən asılı qalıb. Rusiya bu ixtilafı nə özü çözür, nə də başqalarının, o cümlədən Azərbaycanın hərbi yollu çözməsinə imkan verir.

Problem həm də bundadır. Yəni Qarabağ problemindən daha çox, onun həllinə əngəl olan Rusiya problemi var. İkinci problem həllini tapmadan birinci - Qarabağ problemi də heç vaxt nizamlanmayacaq - burası artıq dəqiqdir. Bu xüsusda rusiyalı tanınmış teleaparıc və təhlilçi Vladimir Solovyovun Bakıya son səfəri ilə bağlı Rusiyanın "Vesti" radiosuna verdiyi müsahibədə bir sıra məqamlar diqqət çəkir.

Solovyovun dediyinə görə, Azərbaycanda dəqiq dərk var ki, Rusiyanın hazırkı rəhbərliyi dövründə Dağlıq Qarabağ konfliktinin hərbi həll yolu yoxdur. "İlham Əliyevin çox hörmətlə yanaşdığı Putinin timsalında Rusiyanın indiki rəhbərliyi zamanı hərbi müdaxilə mümkün deyil", - deyə telejurnalist qeyd edib.

Azərbaycan prezidentinin onda çox yaxşı təəssürat yaratdığını söyləyən Solovyov hesab edir ki, Dağlıq Qarabağ məsələsində kompromislər axtarışı tamamilə mümkündür: "Bunu Putin də yaxşı bilir. Nəinki bütün tərifləri qane edən kompromislər mümkündür, - hansı kompromislər ki, Azərbaycan və Türkiyə tərəfindın tətbiq edilən Ermənistanın blokadasına son qoyacaq və bölgəyə investisiya axınına gətirəcək, - hətta Azərbaycan, Ermənistan və Rusiya vahid məkanda yer ala, Azərbaycan Avrasiya İqtisadi Birliyinə qoşula bilər. Dərin qarşıdurmanın həllindən sonra bütün bunlar mümkündür".

Teleaparıcı daha sonra deyib. "Mən o fikirlı razıyam ki, əgər ötən əsrin 80-cı illərindı Azərbaycana Heydər Əliyev rəhbərlik eləsəydi, situasiya indiki kimi olmazdı, qətliamlar, xalqların yaşadığı dəhşətlər baş verməzdi. Müharibəni ağır nəticələri... hər bir xalqın öz qəhrəmanları və qurbanları var. İlk növbədə Rusiyanın aparmalı olduğu incə diplomatik oyuna ehtiyac var", - deyə sonda Solovyov sonda əlavə edib.

*****

Rusiyalı telejurnalistin sözlərində sözsüz ki, həqiqət payı var. Lakin əfsuslar olsun ki, o da bir çox digər rusiyalı siyasilər və ekspertlər kimi əsas məsələni açıq demir. Yaxud bunu deməyə onun cəsarəti çatmır. Bu da ondan ibarətdir ki, məhz Rusiya Qarabağ ixtilafının birdəfəlik, Solovyevin söylədiyi kimi, "kompromislər əsasında, incə diplomatik oyunla" yoluna qoyulmasını istəmir.

Səbəb sadədir: Moskvada hesab edirlər ki, konfliktin istənilən formada həlli Rusiyanın Güney Qafqazdan çıxmasını sürətləndirəcək. Bundan əlavə, Rusiya kifayət qədər müstəqil, Kremldən asılı siyasət yürütməyən Azərbaycanı Qarabağ konflikti vasitəsilə öz siyasi-hərbi təsir dairəsində saxlamağa çalışır. Ancaq belə vəziyyət sonsuzadək uzana da bilməz.

Təəssüf ki, ATƏT-in Minsk Qrupunun digər mühüm həmsədri ABŞ da Dağlıq Qarabağ məsələsində yetərli siyasi aktivlik və təşəbbüskarlıq göstərmir. Bu, bir yana, üstəlik, Rusiya kimi "ikili standart" yanaşması sərgiləyir, işğalçı Ermənistanla işğalçı kimi davranmır, münaqişənin həlli üçün Azərbaycandan qeyri-mümkün olan güzəştlər umur. Halbuki, Ermənistandan fərqli olaraq, Azərbaycan rəsmi Vaşinqton üçün bölgədə qat-qat önəmli və vacib bir ölkədir.

**Politoloq Elxan Şahinoğlu**nun bu xüsusda ABŞ-ın Azərbaycandakı səfiri Robert Sekutanın bir neçə gün öncə verdiyi "Azərbaycan Suriya məsələsində bizə kömək etsin" açıqlaması ilə bağlı Qarabağ kontekstində şərhi yerinə düşür.

"Bu açıqlamanı anlamıram. Suriyada Bəşər Əsədə qarşı yürüdülən siyasətdə Azərbaycan niyə Amerikanın yanında olmalıdır? Bu bizim təhlükəsizlik maraqlarımıza uyğun deyil. Rusiyanın xarici siyasətini siyasi müşahidəçi və fərd olaraq zərərli hesab edirəm. Ancaq Suriyaya görə Bakı Kremllə niyə düşmən olmalıdır? Axı bizim Suriyada özəl maraqlarımız yoxdur. Bəli, şəxsən mən də Bəşər Əsədin legitimliyini çoxdan itirdiyini və onun hakimiyyətdən getməsi zərurətini dəstəkləyirəm. Ancaq mən müstəqil siyasi ekspertəm, rəsmi Bakı isə bu mövqedən çıxış edə bilməz. Azərbaycanın Yaxın Şərqdə, eləcə də Suriyada özəl maraqları yoxdur. Yeganə istəyimiz Suriyada müharibənin bitməsi və bu ölkənin ərazi bütövlüyünü təmin etməsidir. Vəssalam. Bundan artığı rəsmi Bakıya lazım deyil. Yaxşı olardı ki, Amerikanın Ermənistandakı səfiri deyərdi ki, "Suriyada Bəşər Əsədə qarşı mübarizədə Ermənistanın Amerikanın yanında olmasını istəyirik".

Politoloq sonda bir iradını da diqqətə çatdırıb: "Azərbaycanın işğal altındakı torpaqlarını boşaltmaq məsələsində İrəvana güldən ağır söz demirlər, Suriyaya gəldikdə isə Azərbaycanı yükləmək və problemin mərkəzinə sürükləmək istəyirlər".

**Necə deyərlər, əlavə şərhə ehtiyac qalmır.**



# Daha bir erməni Bakı Sülh Platformasına qoşuldu

**Məşhur erməni rejissor, Ermənistan Dram Teatrının banisi Qraçya Kaplanyanın nəvəsi, teatr xadimi Aleksanyan Davit Arsenoviç "Ermənistan Azərbaycan Sülh Platforması"na qoşulub (Report). "Ermənistan Azərbaycan Sülh Platforması"nın mətbuat xidmətindən verilən məlumata görə, o, bu barədə bəyanat verib.**

Bəyanatda deyilir: "Üzümü həmvətənlərimə tutub, bir vaxtlar qardaş kimi olan Azərbaycan xalqı ilə sülhə çağırıram. Dağlıq Qarabağ münaqişəsi regiona yalnız nifrət və tələfatlar gətirdi. Bu səbəbdən hesab edirəm ki, çox tez bir zamanda Dağlıq Qarabağ münaqişəsini sülh yolu ilə həll etmək lazımdır. Azərbaycan və Ermənistan Respublikalarının ərazi bütövlüyü və suverenliyinə, və hər iki dövlətin beynəlxalq səviyyədə tanınmış sərhədlərinə hörmət və dəstəyimi ifadə etmək istəyirəm. BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi müvafiq qətnamələrin, digər beynəlxalq təşkilatların qətnamə və qərarlarının icrasının çox vacib olduğunu vurğulamaq istəyirəm. Münaqişənin sülh yolu ilə həllində ATƏT-in Minsk Qrupunun fəaliyyətinin vacibliyini qeyd etmək istəyirəm. Bizim xalqlarımız, əsrlər boyu sülh içində yaşayıb. Buna bir nümunə kimi Ermənistanda uzun müddət fəaliyyət göstərən İrəvan Azərbaycan Dövlət Dram Teatrının populyarlığını qeyd etməmək olmaz. Lakin münaqişənin həll olunmaması nəticəsində bizim xalqlarımızın bir-biri haqqında təsəvvürləri yalnız müharibə kontekstində formalaşıb. İnsanların sülh şəkildə birgə yaşayışını və uzun müddət davam edən münaqişənin həllini tam dəstəkləyirəm. Biz hamımız sülh və təhlükəsizlik şəraitində yaşamalıyıq və mən inanıram ki, bu sülhə nail olacağıq. Yuxarıda qeyd olunan səbəblərə görə, bu sülh təşəbbüsünə öz dəstəyimi ifadə edirəm və əsas məqsədi münaqişənin həllinə töhfə vermək olan Ermənistan-Azərbaycan Sülh Platformasına qoşulduğumu bəyan edirəm".

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 78 (6692) 15 aprel 2017

**Gələn ayın 19-da İranda keçiriləcək prezident seçkiləri hazırda dünya və regionun gündəmindədir. Sabiq prezident Mahmud Əhmədinejatın prezidentlik iddiasına yenidən düşməsi seçki marafonunu daha da qızışdırıb, eyni zamanda seçki ətrafında gedən müzakirələrə xüsusi çalar qatıb.**

# Əhmədinejadın revanşı: dönüşü dünya və regiona nə vəd edir?

## Elçin Mirzəbəyli: "Onun prezident seçiləcəyinə əmin deyiləm"

Ekspertlərin eks-prezidentin namizədliyi ilə bağlı fikirləri birmənalı deyil. Çoxları onun ikinci dəfə İran prezidenti olmasını dünya və Azərbaycanın yerləşdiyi region üçün təhlükəli olacağını proqnozlaşdırır. Xüsusilə onun ilk prezidentlik müddətini nəzərə alaraq, yenidən İran rəhbəri olacağı təqdirdə Amerika ilə münasibətlərin kəskinləşəcəyi vurğulanır. Hazırkı prezident Həsən Ruhaninin dövründə ABŞ-la münasibətlərdə balans qoruma siyasətinin olduğunu əminliklə söyləmək də mümkündür.

Azərbaycan acısından da M.Əhmədinejatın geri dönüşü müxtəlif cür dəyərləndirilir. **Politoloq Elçin Mirzəbəyli** hesab edir ki, İranın sabiq rəhbərinin seçkilərdə iştirakını indidən söyləmək tezdir: "Mahmud Əhmədinejat prezidentliyə namizədliyini irəli sürən 300-ə yaxın namizəddən biridir. Qeyd edim ki, İranın ali dini rəhbəri Əhmədinejatın namizədliyinin əleyhinə çıxış edib. Bunun real, yaxud manevr xarakterli bir mövqe olduğunu isə zaman göstərəcək. Namizədlər haqqında son qərarı İranın Dini Ekspertlər Şurası Məclisi (Məclise-Şuraye-Xübreqan) verəcək. Bu baxımdan Əhmədinejatın seçkilərdə iştirak edəcəyini söyləmək hələ çox tezdir. Bir məqamı da qeyd edim ki, İranda prezident seçkilərində iştirak edən namizədlərin yekun siyahısının müəyyənləşdirilməsində ölkədaxili faktorlardan daha çox xarici amillər rol oynayır. Məsələn, İran-ABŞ münasibətlərinin kəskin olduğu dönəmlərdə sərt və xarizmatik Corc Buşun qarşısına eksentrik mühafizəkar, ABŞ səfirliyinin tutulmasında fəal iştirak edən Mahmud Əhmədinejad çıxarılmışdı. ABŞ-ın xarici siyasətinin xarizmasını yerlə bir edən Obamanın qarşısına isə islahatçı Həsən Ruhanı çıxarıldı. Nəzərə alsaq ki, Donald Tramp hakimiyyətə gəldiyi ilk gündən İranı hədəfə alıb və Obamanın bu ölkəyə qarşı siyasətini sərt şəkildə tənqid edir, o zaman Trampın önünə Əhmədinejat, yaxud hansısa sərt mühafizəkar birisinin çıxarıla biləcəyi ehtimalı da az deyil. Onu da deyim ki, İranda qeydiyyata alınmış 270-ə yaxın siyasi təşkilat var. Bu partiyalar rəmzi olaraq mühafizə-



kar, islahatçı və mötədillər düşərgəsində yer alıblar. Əslində bu, mövcud rejim tərəfindən yaradılmış süni rəqabət mexanizmidir. Reallıqda isə hər üç düşərgə İranın mövcud teokratik idarəçilik sisteminin mühafizə olunmasına xidmət edir".

**Politoloq İranda mühafizəkar namizədin qalib gəlmə ehtimallarının yüksək olmasından da söz açdı:** "Dünyada və regionda baş verən prosesləri, ABŞ-İran, İsrail-İran münasibətlərinin mövcud durumunu, Suriya böhranını və digər amilləri nəzərə alsaq, prezident seçkilərində mühafizəkar namizədlərdən birinin önə çıxarılması və qalib gəlməsi mümkündür. Bu, Əhmədinejat ola da bilər, olmaya da. Əgər Əhmədinejat və yaxud ona bənzər hansısa namizəd prezident seçilərsə, o zaman Corc Buşun dövründə cərəyan edən siyasi şouların şahidi olacağıq. Ritorikanın güclənməsinə, xarici düşmən amilinin ön plana çıxmasına cəhd göstəriləcək. Amma bunun nə dərəcədə effektiv ola biləcəyi mübahisəlidir. Çünki nə dünya həmin dünyadır, nə region, nə də İranın özü... Cüzi və kosmetik də olsa müəyyən azadlıqlara nail olmuş, dünyaya açılmaq istəyən İran cəmiyyətini yenidən sıxmaq cəhdləri əks effekt də verə bilər. Çox çətin də görünsə, İranın da, Rusiyanın da demokratik dəyərlərə sahiblənməsi region dövlətlərinin hər birini qane edir. Bu daha yaxşı perspektivdir. İranda Əhmədinejatın, yaxud ona uyğun davranış sərgiləyəcək başqa birisinin prezident seçilməsi isə regional əməkdaşlığa ciddi təsir göstərməyəcək. Daha öncə də qeyd etdiyim kimi, regiondakı və dünyadakı reallıqlar dəyişib. Digər tərəfdən, əgər yeni seçilən prezident sərt siyasi xətt tutarsa, o zaman bunun qarşılığında İrana qarşı sanksiyaları daha da sərtləşər. Belə olduğu təqdirdə, şübhəsiz ki, Azərbaycan İran üçün "həyat yolu"na çevrilə bilər. Necə ki, bir zamanlar Azərbaycan torpaqları işğal olunanda İran Ermənistan üçün "həyat yolu" funksiyasını yerinə yetirirdi".

**E.Mirzəbəyli M.Əhmədinejatın qalibiyyəti perspektivlərinin az olduğunu qənaətindədir:** "Mən Əhmədinejatın seçkilərə buraxılacağına, əgər buraxılarsa da prezident seçiləcəyinə tam əmin deyiləm. Ola bilsin ki, rejimin idarəçiləri fərqli bir yol, üslub seçsinlər. Yaxud Əhmədinejatdan daha sərt, amma daha üslublu bir siyasətçi çıxarılsın ortalığa. Bunu zaman göstərəcək. İndiki halda islahatçı namizədin seçkilərdə uğur qazanması az inandırıcı görünür. ABŞ-İran münasibətləri isə İranda kimin prezident seçiləcəyindən deyil, ABŞ-ın İranla bağlı hədəflərindən və strategiyasından asılıdır. İran iki ölkə arasındakı münasibətlərin formasını müəyyənləşdirə biləcək gücdə və potensialda deyil".

❑ Cavanşir ABBASLI

# Qafqaz uğrunda mübarizə Türkiyə ilə Rusiyanı üz-üzə qoyacaq?

## Qabil Hüseynli: "Türkiyə hakimiyyəti aktivləşməkdə qərarlıdırsa, riskləri göz önünə alıb dəf etmək niyyətindədirsə bu, Azərbaycanın xeyirinə olar"

Türkiyədəki 16 aprel referendumunda prezident üsul-idarəçilik sisteminə keçid baş verəcəyi halda Ankaranın özünün regiondakı həyati maraqlarını qorumaq üçün əlavə rıçaqlar və daha güclü söz sahibliyi əldə edə biləcəyi proqnozlaşdırılır. Bildirilir ki, Türkiyənin dövlət olaraq yeni mərhələyə qədəm qoyması Azərbaycana və onun problemlərinə də təsirsiz ötüşməyəcək. Bizim ən böyük problemimiz isə əlbəttə ki, işğalçı Ermənistanladır. Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın bu günlərdə etdiyi çıxışlarında ölkəsinin Qafqazlarda fəallaşacağını bəyan eləməsi bu xüsusda Azərbaycanın maraqlarına uyğun qiymətləndirilir.

Qeyd edək ki, Rəcəb Tayyib Ərdoğan 16 aprel referendumu ilə bağlı təbliğat kampaniyası çərçivəsində Ərzurumda etdiyi çıxışında Azərbaycanın əsas problemi kimi Qarabağ probleminə də dəxli olan mühüm bəyanat verib. Türkiyə lideri deyib: "Ankara bundan sonra da Türkiyənin birliyini, stabilliyini və ərazi bütövlüyünü pozmaq istəyənlərə qətiyyətlə müqavimət göstərəcək. Qara və Aralıq dənizlərində mövqelərimizi vermək Türkiyənin öz ərazilərini itirməsinə səbəb olacaq. Bu, tamamilə aydındır. Türkiyənin təhlükəsizliyi Balkanlar və Qafqazdan başlayır. Türkiyə bu reallıqları nəzərə almalıdır".



Ekspertlərin fikrincə, belə bir açıqlama əslində Ankaranın müstəqil xarici siyasət kursunu gücləndirəcəyinin bir anonsudur və mahiyyət etibarilə Rusiyaya, Qərbə və İrana ünvanlanıb. Çünki adıçəkilən regionlarda əsasən Rusiya, ABŞ və İran fəaldır. Yaxud bu, ən azından, sadalanan bölgələrdə Türkiyə ilə hesablaşmağın zəruri olduğunun anonsudur.

*Qafqaza, daha dəqiqi, Cənubi Qafqaza gəlincə, bəllidir ki, Moskva buranı özünün "həyati maraqlar" sferası hesab edir. Bəs, Türkiyənin Qafqazlarda fəallaşması son zamanlar istiləşən Rusiya ilə münasibətlərinə problem yarada bilərmi? Rusiya Türkiyənin Qafqaza nüfuz etməsinə imkan verəcəkmi?*

**Politoloq Qabil Hüseynli** "Yeni Müsavat"a bildirdi ki, Türkiyə prezidenti referendum öncəsi təşviqat mitinqlərində həddən artıq maraqlı fikirlər söyləyir, bəyanatlar verir. Məsələn, bir neçə gün öncə mitinq iştirakçılarına müraciət edərək deyib ki, referendumdan sonra sizi sürprizlər gözləyir. Bu sürprizləri hələ açmaq istəmədiyini deyən Ərdoğan sürprizlərin bəziləri haqqında məlumat verib. O, bildirib ki, Türkiyə İraqda və Suriyada çox fəal olacaq: "Yəni Ərdoğan hər mitinqdə Türkiyə dövlətinin geosiyasi planları haqqında maraqlı açıqlamalar verir. Vaxtilə söylənmiş Osmanlı dövlətini yenidən bərpa etməklə bağlı səslənən fikirlərə uyğun fikirlər səsləndirmək də Türkiyə prezidentinin çıxışlarında tez-tez rast gəlinən haldır. Ərdoğan hələ ki, bəyanatlar verir, fikirlər bildirir. Həmin bəyanatlar, o cümlədən, Qafqazla bağlı bəyanatı da hələ ki, konkret praktiki işlərə yönəlməyib. Ola bilsin ki, referendumdan sonra real addımlar atılmağa başlanacaq. Mümkündür ki, Ərdoğan mərkəzi hakimiyyətin güclənməsinin nələrə gətirib çıxaracağını o cür açıqlamalarla əsaslandırmağa çalışır".

**Politoloqun sözlərinə görə, Türkiyənin hələ ki, Qafqazlarda fəaliyyəti Gürcüstanla-Azərbaycan-Türkiyə üçlüyünün yaranmasından uzağa getməyib. Bu üçlü əlaqə hələ Rusiya təsirini zəiflədə biləcək səviyyədə güclənməyib:** "Ərdoğan hakimiyyəti Dağlıq Qarabağ məsələsində Azərbaycana dəstək verir, amma Azərbaycanın müasir silahlarla silahlandırılmasında İsrail kimi fəal iştirak eləmir. Ola bilsin bəlkə də Ərdoğan bunu demək istəyir ki, yaxın zamanlarda həm Dağlıq Qarabağ məsələsində, həm də Qafqazlar uğrunda mübarizədə Türkiyə daha fəal olacaq.

Bu zaman Rusiya ilə qarşı-qarşıya gələ biləcəyi və münasibətlərin korlana biləcəyi ehtimalını ola bilsin Ərdoğan göz önünə alıb. Çünki hər kəsə aydındır ki, Rusiya Qafqazlara özündən başqa kənar bir dövlətin nüfuz etməsinə həmişə sərt reaksiya verir. Ərdoğan da bunu bilməmiş deyil. Ona görə də hər halda o, münasibətləri elə quracaq və işi elə aparacaq ki, Rusiyanın maraqlarına zidd addımlar olmayacaq. Lakin Qafqaza nüfuzetmə məsələsinə Moskvanın xeyir-dua verəcəyi, göz yumacağı inandırıcı deyil. Rusiya daim çalışır ki, Türkiyə Dağlıq Qarabağ məsələsindən, Qafqazlardan mümkün qədər uzaqda dayansın. İndi Türkiyə hakimiyyəti bu iki məsələdə aktivləşməkdə qərarlıdırsa, riskləri göz önünə alıb dəf etmək niyyətindədirsə bu, Azərbaycanın xeyirinə olar".

❑ Etibar SEYİDAĞA

YENİ MÜSAVAT
N 78 (6692) 15 aprel 2017

# "Bizim dayanıqlı, oturuşmuş ailə modelimiz, ənənələrimiz yoxdur"

## Əhməd Qəşəmoğlu: "Xüsusi ilə oğlan uşaqlarımızı düzgün tərbiyə etmirik"

**Ərə gedə bilməyən qız keçmiş sevgilisini məhkəməyə verib. Bu hadisə hansısa xarici ölkədə yox, Azərbaycanda baş verib. Belə ki, 30 yaşlı xanım iddia edir ki, 5 il ərzində sevgili olduğu oğlan ona ümid verib, sonra onunla evlənməyib. Xanım hesab edir ki, bu hərəkətinə görə, keçmiş sevgilisi məsuliyyətə cəlb olunmalıdır. Çünki sevdiyi oğlandan ayrıldıqdan sonra ailə həyatı qura bilmir. Buna görə də, hüquqlarının bərpa olunmasını istəyir. 30 yaşlı V.Ə iddia edir ki, keçmiş sevgilisi onu 5 il ərzində sevdiyini deyib, ailə quracaqlarına inandırıb, son vaxtlar isə sözündən geri çəkilib. O deyir ki, sevgilisinin ailəsi ilə yaxşı münasibətləri olub. Anası onların evlənməsinə razı imiş...**

Bir müddət əvvəl isə Bakıda daha bir qəribə məişət hadisəsi baş vermişdi. Belə ki, toy sahibi onun dəvətini sayıb toya gəlməyən 50-ə yaxın tanışını məhkəməyə vermək istəyirdi...

Biz bu cür gülünc hadisələrin adətən xarici ölkələrdə baş verdiyini eşidirdik. Artıq Azərbaycanda da bu tendensiya müşahidə olunmaqdadır. Bir çox ölkələrdə bu cür hadisə ilə rastlaşılan zaman məhkəməyə verib təzminat belə almaq mümkündür. Məsələn, qonşu Türkiyədə qadın ona xəyanət edən ərinə və sevgilisinə təzminat davası aça bilər. Eyni zamanda hansısa qız və ya oğlan onun duyğuları ilə oynamış, aldatmış qarşı tərəfi məhkəməyə vermək hüququna malikdir.



*Azərbaycanda isə belə bir qayda, ənənə, hüquqi təcrübə mövcud deyil. Maraqlıdır, xarici ölkələrdə eşitməyə öyrəşdiyimiz bu cür hadisələrin Azərbaycanda da baş vermə səbəbi nədir? Azərbaycanda ailə mentaliteti, ailə mədəniyyəti, dəyəri getdikcə itirmi? Ümumiyyətlə, ailə mədəniyyəti gənclərə necə aşılanmalıdır, ailədə yoxsa məktəbdən başlanmalıdır?*

**Sosioloq Əhməd Qəşəmoğlu** ailələrin övladlarını, xüsusən də oğlan uşaqlarını həyata düzgün hazırlamadığını dedi: "Toya gəlməyənləri məhkəməyə vermək bir az gülməlidir. Çünki bu, şəxsi bir məsələdir. Məhkəməyə o vaxt verərlər ki, bununla bağlı qanunvericilik bazası olsun. Amma qızın dediyində başqa nüanslar var. Azərbaycanda biz hələ nə oğlanlarımızı, nə qızlarımızı düzgün həyata hazırlamırıq. Onların ailə barədə təsəvvürlərinin yaranması üçün də ailə daxilində bununla bağlı hansısa iş getmir. İndi klassik olaraq müsəlman ölkələrində uşaqlar necə böyüyür, ailə qururlarsa, elə də davam edir. Azərbaycanda bununla bağlı xüsusi olaraq vaxt ayırmağa, gəncləri hazırlamağa diqqət yetirilmirdi. Azərbaycanda ən xoşagəlməz hal odur ki, biz xüsusilə oğlan uşaqlarımızı düzgün tərbiyə etmirik. Əksər ailələrdə evdə oğlan uşağı 2-3 yaşında olanda sanki sevinirlər və öyrədirlər ki, qızlara bu sözü de, öp dişlə və sairə. Biz ümumən oğlanlarımızı elə tərbiyə edirik ki, onlar yeniyetmə, gənclik yaşına çatanda elə bilirlər nə qədər çox qızla sərgüzəştləri olsa, bir o qədər qəhrəmanlıq etmiş olurlar. Əksinə, çox az -az oğlan olur ki, bunun məsuliyyətini dərinliyi ilə başa düşür ki, kiminsə həyatını korlaya, bədbəxt edə bilərlər. Bəzən görürük ki, bir oğlan eyni vaxtda 4-5 qızla görüşür, aldadır. Sonra da bu hərəkəti ilə dostlarının yanında qürrələnir ki, mən belə dırnaqarası qəhrəmanlıq edirəm. Bizim mədəniyyətimiz, oğlan uşaqlarını tərbiyə etmə sistemimiz düzgün olsaydı, hər kəs bilərdi ki, bu nə dərəcədə iyrənc bir işdir. Bax, bu sahədə bizim çoxlu problemlərimiz var. Ona görə də bizim dayanıqlı, oturuşmuş ailə modelimiz, ailə ilə bağlı ənənələrimiz yoxdur. Üstəlik, indiki qloballaşma dövründə də müxtəlif təsirlərə məruz qalmışıq. Burada qeyri-adi səviyyədə xaos yaranıb. Böyük ehtiyac var ki, bizim ailə modelləri barədə, ailə qurmaq haqda bizim müzakirələrimiz olsun. Gənclərin bu sahədə maarifləndirilməsi ilə bağlı sahə boşluqdur. Bu sahədə işlər getmədiyi üçün bu cür fəsadlar olur. Bu sahədə konkret olaraq ortaya qoyduğumuz dünya görüşümüz yoxdur. Buna görə də bəlkə də günbəgün heyrət doğuran variantlar ortaya çıxacaq. Bu həmin uyğun komitənin işidir ki, bununla bağlı təkliflər hazırlasın".

❑ **Günel MANAFLI**

# "Banklar əhalini dövlətdən narazı salır"

## İmişli sakini səlahiyyət sahiblərindən kömək istəyir

**"Vacibdir elə evimizin içinə girib başımızı kəssinlər? Son ümid yerimiz olan pensiyamı, uşaq bağçasında işləyən, 1 aylıq əməyi qarşılığında 150 manat qazanan həyat yoldaşımın pulunu sistemə salıb ələ keçirilər. Bu terror deyil? Digər müsəlman ölkələrində İŞİD, Azərbyacanda banklar əhalini doğrayır, dövlətdən narazı salır" - İmişli rayon sakini Tofiq Əhmədov bir çox dövlət orqanlarına müraciətlərində belə deyir. KİV-ə ünvanladığı müraciətində qeyd edir ki, 2013-cü ilin dekabrında "Kapital bank"dan 5 min manat kredit götürüb.**




Zamin həyat yoldaşı Gülbəniz Əhmədova olub. Kredit götürərkən İmişli rayon Suvarma Sistemləri İdarəsində texnik vəzifəsində işləyib. 2014-cü ilin iyununda işdən çıxarılıb. Bundan sonra krediti ödəməkdə davam edib. 2015-ci il iyuluna qədər hər ay kredit borcunu 193 manat ödəyib. Bundan sonra gəliri olmadığından kredit borcunu ödəməsində çətinlik yaranıb. "Kapital bank" 2016-cı ilin yanvarında məhkəməyə müraciət edib. İmişli rayon Məhkəməsinin hakimi Ülvi Qəmbərov "Kapital bank"ın verdiyi kredit borcuna əlavə 1291 manat faiz borcu hesablanması haqda iddiasını təmin edib. Tofiq Əhmədov 2016-cı ilin iyun ayında həmin məhkəmə əmrindən İmişli Rayon Məhkəməsinə şikayət edib. Xahiş edib ki, vəziyyəti nəzərə alınsın, faiz borcu silinsin, əlavə borc hesablanması dayandırılsın: "Ailə başçısıyam, işsizəm. Himayəmdə 6 nəfər var. Bu günə qədər dövlətdən hər hansı bir müavinət almamışam. İmişli Rayon Məşğulluq İdarəsində işsiz kimi qeydiyyatdayam. Mən krediti ödəyə bilmirəmsə, əlavə 1291 manat faiz borcunu necə ödəyə bilərəm? Hakim vəziyyətimi nəzərə aldı, həmin əlavə hesablanan 1291 manat borcu sildi, əlavə faiz hesablanmasının dayandırılması haqda qərar verdi. Bankın nümayəndəsi Elnur Nəsirov isə bu qərardan narazı qaldı. Qərardan verdikləri apelyasiya şikayətində yazırlar ki, bank pulu depozit olaraq digər vətəndaşdan alıb. Mənə 5 min manat kreditə qol çəkdirib 4 min 600 manat pul veriblər. Hər ay da əsas borc və 23 faiz əlavə geri alıblar. Mən götürdüyüm öhdəliyi yerinə yetirməkdən qəsdən yayınmıram. Gəlirim olanda ödəmişəm. Bank həmin pulu digər vətəndaşdan 2 faizlə alıb, mənə 23 faizlə verib. Şirvan Apelyasiya Məhkəməsinin hakimi Namiq Məmmədov 2017-ci ilin martında işə baxdı və mühasibat ekspertizasının keçirilməsi haqda qərar çıxardı. Amma iş üzrə ekspertizanın təyin edilməsi doğru deyil. Bank əlavə 1291 manat faiz hesablayıb.Pulum olsaydı, müqavilə üzrə öhdəliyimi yerinə yetirərdim. Məhkəmə isə ekspertiza təyin edib, hesablanmış əlavə faiz məbləğinin aydınlaşdırılmasını, dəqiqləşdirilməsini ekspertlər qarşısında sual olaraq qoyub. Üstəlik 150 manat da əlavə ekspertiza xərcini məndən tələb edəcəklər. Mən kredit borcumun 40 faiz həcmində tutulmasının əleyhinə deyiləm. Bank bizim ailənin cüzi gəlirini belə 100 faiz həcmində əlimizdən almaqla bizim elə belə də ağır olan maddi durumumuzu fəlakətə çevirir.".

**Məsələ ilə bağlı bankın da mövqeyini dərc etməyə hazırıq.**

❑ **E.MƏMMƏDƏLİYEV**

# Rusiya "Eurovision"dan kənarda qaldı

## Rusiya teleşirkəti qərar verdi, müsabiqəni yayınlamayacaq

**Rusiya-Ukrayna arasındakı "Eurovision" qalmaqalı dünya mətbuatı tərəfindən diqqətlə izlənilməkdədir. Artıq Rusiyanın 1-ci kanalı, təmsilçi Yuliya Samoylovaya viza vermədiyi üçün yarışı yayınlamayacağı haqda qərar verib. Avropa Yayım Birliyi (EBU) isə bundan sonra Rusiyanın müsabiqədə iştirak etmək şansının qalmadığını açıqlayıb. Məlum olduğu kimi Ukrayna Rusiyanın işğal etdiyi Krıma getdiyi üçün Yuliya Samoylovaya viza verməkdən imtina edib. EBU isə Ukraynanın bu addımını qınayaraq müsabiqəni siyasiləşdirməməyə çağırıb. Qeyd edək ki, Ukraynanın bu qadağasından sonra EBU Rusiyaya bəzi alternativlər təqdim etmişdi.**




EBU Samoylovanın müsabiqəyə Rusiyadakı bir studiyadan qatılmağını və ya Rusiyanın başqa bir nümayəndə göndərməsini təklif etmişdi. Rusiya tərəfi isə alternativ təklifləri qəbul etmədi. Lakin Rusiya teleşirkəti hər iki təklifi rədd edərək müsabiqəni yayınlamamağa qərar verib.

Xatırladaq ki, bu günlərdə Avropa Yayım Birliyi tərəfindən Ukraynanın son anda "Eurovision"a ev sahibliyi etməkdən məhrum oluna biləcəyi, əvəzinə isə yarışmanın Almaniyada keçiriləcəyi ilə bağlı fikirlər səslənmişdi. Lakin son anda qurumun baş direktoru İnqrid Deltenre açıqlama verərək bildirdi ki, yarışma Ukraynada keçiriləcək. Halbuki bundan əvvəl İnqrid Deltenre açıq şəkildə Rusiyanın tərəfində olduğunu nümayiş edərək, təşkilatçıların iştirakçıları müsabiqədən çıxarmasının yolverilməz olduğunu, bunun qayda pozuntusu olduğunu qeyd etmişdi. Qurum direktoru bununla kifayətlənməyib demişdi ki, "Ukrayna ötən il keçirilən yarışmada səhvən qalib gəlib və "Eurovision"ın Kiyevdə keçirilməsi yanlışdır". Beləliklə Ukrayna inadkarlıq edərək öz prinsipləri üzərində qaldı və rusiyalı təmsilçi Yuliya Samoylovanı 2015-ci ildə Ukrayna qanunvericiliyinə zidd olaraq Krımda konsert verdiyi üçün öz ölkəsinə qoymadı. Rusiya da bu inadkarlıq qarşısında geri çəkilməli oldu. Qərara əsasən rusiyalı təmsilçi "qara siyahı"ya düşdüyü üçün 3 il ərzində Ukraynaya daxil ola bilməz. İddialara görə Avropa Yayım Birliyinin son qərarları, bu və ya digər məsələlərin kontekstində, Avropa Krım və Donbas məsələsindən sonra daha çox Ukraynanın yanında olduğunu göstərməyə çalışır.

"Zənnimcə, bu, başqa cür ola bilməzdi. Bir ölkə əgər müstəqil bir ölkənin ərazisini işğal edir və orada aqressiv separatizmə dəstək verirsə, sonra da onun işğalçı qoşunlarının böyük bir hissəsi işğal olunmuş ərazilərdədirsə, qondarma respublikanın yaradılmasına Rusiya yardım göstərirsə, belə bir ölkənin Ukraynada keçiriləcək "Eurovision" müsabiqəsinə buraxılıb-buraxılmaması üçün təşkilatçı ölkənin səyləri başa düşüləndir". Bu sözləri **politoloq Qabil Hüseynli** mövzunu şərh edərkən "Yeni Müsavat"a açıqlamasında bildirib. Politoloq qeyd edib ki, bununla da təşkilatçı ölkə işğalçı ölkənin tanınmasını istəyir:

"Hələ də BMT və digər beynəlxalq təşkilatlar Rusiyanı işğalçı ölkə kimi tanımaq barədə qərarlar qəbul etməyiblər. Baxmayaraq ki, onların bununla bağlı etimadları var. Sadəcə olaraq bu məsələ üzərinə getmək istəmirlər. Ukrayna tərəfi həm də Rusiyanın gələcəkdə etimad edilən təxribatlarına da diqqət çəkmək istəyir. Çünki tez-tez müxtəlif xarakterli qəzet yazılarında, televiziya çıxışlarında Rusiyanın Kiyevə qədər hərəkət edə biləcəyini və Ukraynanın yenidən Rusiyanın tərkibinə daxil edilməsini gerçəkləşdirə biləcəyini göstərmək istəyir. İşğalçı bir dövlətin incəsənət bayramında nə işi ola bilər? Və işğala məruz qalmış ölkə öz heysiyyatını, ləyaqətini necə qorumalıdır? Fikrimcə, işğala məruz qalmış ölkə beynəlxalq hüquq normalarına uyğun olaraq, işğalçı ölkəni öz ərazisində keçirilən mühüm incəsənət yarışmasına buraxmaya bilər. Bu onun tam hüququdur və burada onu kimsə qınaya bilməz".

❑ Xalidə GƏRAY

**İSRAİL ƏNƏNƏSİ ƏSASINDA ÖZƏL TİBBİ SAHƏDƏ 20 İLLİK TƏCRÜBƏ!**
**Xəstəlikdən əzab çəkən insanlara Əsasən Kişilərə!**
**Diqqət!!! Axırıncı Şans!!!**

**Azərbaycanda və yaxud xaricdə diaqnozun təsdiqi və tam müalicəsi mümkün olmayıbsa, doktor VAİZ SƏMƏDOV şəxsi tibbi metodikası ilə Sizin uğurlu və daha qarantili olaraq aşağıdakı xəstəliklərinizi müayinə və müalicə edə bilər.**

- ✳ Diaqnozu bilinməyən ağır hallar;
- ✳ Xərçəngə şübhəli olan prostat düyünlü adenoması. Prostatitlər;
- ✳ Cinsi zəiflikdən impotensiyadək, marağın və aktların azalması;
- ✳ Vaxtından tez toxum ifrazatı (səbəbdən asılı olmayaraq)
- ✳ Toy gecəsinin uğursuzluqları (kişi tibbi problemlər)
- ✳ Sidikdə və spermada qan;
- ✳ Spermanın azalması, itməsi;
- ✳ Kişi cinsi orqanının birdən əyilməsi, balacalması;
- ✳ Oğlan uşaqlarında cinsi orqanların (penisin və xayaların) yaşa görə balaca olması;
- ✳ Ailədə olan hormonal və infeksion səbəbli sonsuzluq;
- ✳ Tala-tala və hərtərəfli saçların tökülməsi;
- ✳ Gecə-gündüz uşaq və böyüklərdə sidik aktlarının pozulmaları;
- ✳ Baş-boyunda, onurğa-qılçaqlarda, qollar-ayaqlarda, qasıq-xayalarda ağrılar;
- ✳ Psixo-nevroloji gərginlik, yuxusuzluq, qorxu, yaddaşın azalması və digər qəribə olan şikayətlər.
- ✳ Zöhrəvi xəstəliklərdən sonra qalıqlar və ağırlaşmalar.

---

**D-r V.Səmədovun əsas tibbi prinsipi - keyfiyyətli və təkrarsız müalicə aparmaq üçün xəstəliyin əsl və bütün səbəblərini aşkar etmək zəruridir.**

---

*Qəbula yazılmaq və ünvanı öyrənmək üçün saat 11-dən 23-ə dək, **(050) 213-88-05** nömrəsinə, **d-r Vaiz Səmədova** zəng etmək olar.*

Qəbul növbə ilə hər gün saat 12-dən sonra başlayır.



# Bakıda dəhşətli avtoqəza - Kəbirə Məmmədovanın klinikasına aid maşında 3 nəfər kül oldu

**Bakıda yanğınla nəticələnmiş yol-nəqliyyat hadisəsi baş verib. "Report"un məlumatına görə, hadisə Suraxanı rayonu, Zığ şosesində qeydə alınıb. Belə ki, "VAZ 2104" markalı avtomobil "KİA" markalı maşınla toqquşub. Hadisə zamanı "VAZ 2104" markalı avtomaşın alışaraq yanıb.**

Hadisə yerində FHN-in Dövlət Yanğınsöndürmə Xidməti və Xüsusi Riskli Xilasetmə Xidmətinin əməkdaşları cəlb edilib. FHN-dən "Report"a bildirilib ki, hadisə zamanı "VAZ 2104"-də olan hər üç sərnişin yanaraq ölüb.

Səhər saatlarında Zığ yolundan hava limanına gedən istiqamətdə qəza baş verib. Qəza nəticəsində "VAZ-2104" markalı avtomobildə olan 3 nəfər yanaraq ölüb. Hadisə şahidlərinin verdiyi məlumata görə, "KİA" markalı avtomobil "VAZ-2104" markalı avtomobili arxadan vurub. Hadisə nəticəsində "VAZ-2104" markalı avtomobil alışmağa başlayıb.

**APA.tv xəbər verir ki, hadisənin şahidlərindən Fikrət Ağammədov deyir ki, qəzaya səbəb "İkarus" markalı avtobus olub:** "Gəldim gördüm ki, burada maşın yanıb. İçərisində 3 nəfər var idi. Üçü də yanmışdı. Sıxılmış vəziyyətdə qalmışdılar. Qəza olan kimi benzin bakından od tutub, yanıb. Məlumata görə, "İkarus" çaşdırıb "KİA"nın sürücüsünü, o da gəlib dəyib "VAZ-2104"ə. "KİA"da bir nəfər idi. O da sağ idi. Digərlərini isə xilas etmək mümkün olmadı". Qəzadan dərhal sonra hadisə yerinə Dövlət Yanğından Mühafizə Xidmətinin və Xüsusi Riskli Xilasetmə Xidmətinin qüvvələri cəlb olunub. Yanğın nəticəsində "VAZ" markalı minik avtomobilinin yanar hissələri yanıb. Avtomobildə sıxılmış vəziyyətdə qalmış sürücü, 1973-cü il təvəllüdlü Gülağa Quliyev və sərnişinlər - 1973-cü il təvəllüdlü Elçin Sadıqov və onun qardaşı, 1968-ci il təvəllüdlü Namiq Sadıqov Səbbar oğlunun yanmış meyitləri xilasedicilər tərəfindən çıxarılaraq, aidiyyəti üzrə təhvil verilib. Digər avtomobil yanğından mühafizə olunub.

Hadisə zamanı yanan 10 AX 002 nömrəli "VAZ-2104" markalı avtomobil məşhur iş adamı, "Binə" Ticarət Mərkəzinin rəhbəri Kəbirə Məmmədovanın adını daşıyan "Kəbirə Məmmədova Klinikası"na məxsus olub.

**Elan**

**"Kompleks qazma işləri" tresti tərəfindən Cəfərov Cavid Məmməd oğluna verilmiş buraxılmış vərəqəsi itdiyi üçün etibarsız sayılır.**

**Elan**

**Mərkəzdə, "Gənclik" metrosunun çıxışında, kupçalı, tam 3 otaq daş ev, 5/4, orta blok, orta təmirli. Su, qaz, işıq daimi. Nərimanov Prokurorluğunun həyətində, öz evimdir. Qiyməti razılaşma ilə. Maklerlər narahat etməsin.**

**Əlaqə telefonu: (070) 399-01-00; (050) 234-64-67**

YENİ MÜSAVAT
N 78 (6692) 15 aprel 2017

# Roma Papası mafiozun ayağını yudu

## Dünya təəccüblənir, amma o, bunu israrla davam edir; din nə deyir, reallıq nə?

**Katoliklərin lideri Papa Fransisk Pasxa yortusu ayinlərindən öncə, Palinao şəhərində bir həbsxanaya baş çəkib. O, ayaq yuma ənənəsi çərçivəsində həbsxanadakı 12 məhkumun ayağını yuyub və daha sonra qurulayıb. Daha sonra Papa məhbusların ayaqlarını öpüb. Roma Papası Fransisk bu hərəkətləri İlə İsa Peyğəmbərə sadiqliyini nümayiş etdirdiyini deyib: "Biz hamımız günahkarlarıq. Biz özümüzü heç vaxt müqəddəs kimi aparmamalıyıq. Alçalan, təhqir olunan və rədd edilənlərin yanında olmaq lazımdır. Necə ki, İsa Peyğəmbər həmişə qulların yanında idi. Kilsənin müqəddəs borcudur ki, alçalanların yanında olsun. Hamımız rəhmli olmalıyıq. Yadda saxlamaq lazımdır ki, biz hamımız səhv edə bilərik".**



Məhbuslardan üçü qadın, biri isə müsəlman kişi olub. Romadan təxminən 60 kilometr uzaqlıqda olan bu həbsxanadakı məhkumların çoxunu İtalyan mühakiməsi ilə əməkdaşlıq edərək cəza endirimi alan mafiya mənsubları təşkil edir. Papa Fransisk ayağını yuduğu məhkumlar arasında bir mafiya üzvünün də olduğu bildirilir. Papa Fransiskdən əvvəlki papalar ayaq yuma mərasimini John Lateran Kilsəsində təşkil edirdi. 12 həvariləri təmsil etmələri üçün də rahiblər arasından seçim edilirdi. Ancaq 2013-cü ildə vəzifəyə gələn Papa Fransisk ayaq yuma mərasimini fərqli yerlərdə reallaşdırmağa başladı. 2013-cü ildə bir türməyə baş çəkən papa, aralarında bir müsəlmanın da olduğu 12 məhkumun ayağını yumuşdu. Papa, bu ənənə üçün 2014-cü ildə 12 əlili, 2015-ci ildə 12 məhbus və bir kiçik uşağı, keçən il isə 12 qaçqını seçmişdi.

### Papa bu günə qədər neçə dəfə ayaq yuyub və niyə?

"Yeni Müsavat" isə bu günə qədər bu ənənənin tarixi barədə maraqlı fakt və detalları bir araya yığıb. Öncə ondan başlayaq ki, özündən mənsəbcə aşağı səviyyəli adamların ayağını yumaq xristianlıqda itaət və sadəlik rəmzidir. Bundan əvvəlki papalar ayaq yuma ritualını müqəddəs Con Lateran kafedralında keçirib. Papa Fransisk bir ay bundan əvvəl ali dini vəzifəyə seçilib. Əslən argentinalı sabiq kardinal Horhe Berqoqlio daim kasıblara yardım edən xeyirxah Müqəddəs Fransisin adını özünə papa titulu kimi seçib.

Ayaq yumaq xristianlıqda "xidmətinizdəyəm" mənasını verir. Papa Fransisk deyib ki, "bir-birinizə yardım edin, İsa bizə belə buyurub. Mənim bu gün etdiyim də onun buyruğunu yerinə yetirməkdir. Bunu ürəkdən edirəm. Çünki bir rahib və piskopos olaraq vəzifəm sizə xidmət etməkdir".

Bir neçə il öncə də Fransisk "Müqəddəs Cümə axşamı ayini" üçün Rebbibia həbsxanasında 12 məhbusun ayağını yuyub. Onlardan 6-sı qadın, 6-ı kişi olub. Məhbuslar arasında həm italiyalılar, həm də fərqli ölkələrin vətəndaşları olub. Ruhani lider məhkum qadınlardan birinin azyaşlı uşağının da ayaqlarını yuyub.

Xristianların inanclarına görə, bu ayin Həzrəti İsanın çarmıxa çəkilmədən bir gün öncə sevgisini nümayiş etdirmək üçün 12 həvarisinin ayağını yuması ilə bağlıdır. Sonradan bu ayin Roma Papaları tərəfindən davam etdirilib.

Həbsxanaya ilk ziyarət 1983-cü ildə olub. O zaman Papa olan İkinci İohana ona sui-qəsd hazırlayan Mehmet Əli Ağcanı ziyarət edərək, onu qucaqlamışdı. İkinci ziyarəti 2011-ci ildə Papa 16-cı Benedikt edib.

Ondan bir neçə il öncə isə katolik lider Roma yaxınlığındakı "Don Gnocchi" qocalar evini ziyarət edib və burada biri müsəlman olmaqla, 12 nəfərin ayağını yumuşdu.

O bildirmişdi ki, bu sevgi və sayğının göstəricisidir: "İsa Məsihin irsi odur ki, insanlar bir-birlərinə xidmət etməlidirlər. İndi ayaqları yuyacağam. Amma qəlblərimizdə başqa işləri düşünməli, İsanın vəsiyyətinin bir-birimizi sevməyimiz və sayğı bəsləməyimiz olmasını anlamalıyıq".

Müsəlman din xadimləri isə zaman-zaman Roma papasının bu davranışını tənqid ediblər. Çünki İslamda belə bir ənənə yoxdur. Əvəzində böyüklərin əlini öpmək, onların qarşısında baş əymək və bunun kimi müxtəlif hörmət əlamətləri var. Üstəgəl, yanaşmalardan biri də odur ki, cinayətkarın ayağının hansı cinayəti törətməsi bəlli deyil, ona görə də onu öpmək dinə uyğun deyil. Dediyimiz kimi, bu, sadəcə yanaşmadır.

### Məşhurlar da, sıravilər də ərlərinin ayağını yuyurlar

Amma bu xəbər geniş ictimaiyyətə məlum olandan etibarən müzakirələrə də start verildi. Daha çox "başqasına ayağını yudurtmaq doğrudurmu" deyə suallar səslənərkən, müsəlman aləmində də bu hala rast gəlindiyi bildirildi. Xüsusən qadınların öz ərlərinin ayaqlarını yuması bizim ailə institutunda da yer alır deyə fikirlər yer almağa başladı. Kənd yerlərində bu hələ də norma kimi qəbul olunur. Bu haqda bir qədər sonra.

Hələliksə "ayaq yuma" qalmaqallarını yada salaq. Cəmi iki il əvvəl Türkiyənin Əskişəhər adlı şəhərində 45 yaşlı A.T. adlı kişinin öz həyat yoldaşını məhz ayağını yumadığı bəhanəsi ilə boşadığını bilirdiz? Bu barədə məlumata "Hürriyet" qəzetinin arxivlərində axtarış verməklə tanış olmaq mümkündür. Belə ki, inşaatda çalışan kişi hər gün işdən evə qayıdandan sonra həyat yoldaşından ayağını yumasını tələb etsə də, sonuncu bunun adət halını almasından şikayətlənib və ayaq yumayıb. Buna qarşılıq olaraq başlanan dava-dalaşlar isə öz yerini boşanmaya verib. A.T. məhkəməyə ifadəsində deyib ki, "ərinə qulluq etməyən qadının mənim evimdə yeri ola bilməz".

Amma heç də bütün qadınlar A.T-nin xanımı kimi asi deyil. Həyat yoldaşının, sevgilisinin ayağını yumaqdan məmnunluq duyan qadınlar barədə də zaman-zaman mediadan xəbərdar oluruq. Xüsusən bu, türkiyəli sənətçilərin təqdimatında özünü tez-tez göstərir. Bu günədək "kocamın ayaqlarını yumaqdan məmnunam" deyən bir neçə qadın sənətçi olub. Bunlardan biri Seda Sayan, digəri isə Songül Karlı olub. Onların hər ikisi deyib ki, həyat yoldaşlarını çox sevdikləri üçün onun hər cür qayğısını çəkməyə hazırdılar. Amma onların bu açıqlaması Türkiyə Feministlər Dərnəyi tərəfindən ciddi etiraza səbəb olub. Dərnək fəalları sözügedən müsahibələrdən sonra onlara etiraz edərək, bu durumu qadın hüquqlarının pozulması, bunun türk qadınlar arasında təbliği kimi qiymətləndirib.



### Müğənninin ayaq yuma qalmaqalı, nazirin öz seçicilərinin ayağını yuması...

Amma ayaq yuma deyib, keçməyin. Buna görə az qala "diplomatik" savaşlar da yaşanır. Məsələn, Türkiyədə yaşayan Brilyant Dadaşovanın şoumen Mehmet Ali Ərbilin yarışma verilişində "bizim qadınlar ərlərinin ayaqlarını da yuyurlar" deməsi az qala azərbaycanlı qadınların aşağılanması, millətin qürur və heysiyyatının tapdanması kimi qiymətləndirilmişdi. Baxmayaraq ki, B.Dadaşova özü bu vəziyyəti belə açıqlamışdı: "Verilişin aparıcısı Mehmet Əlinin həyatı düz gətirməyib və 4 dəfə onun ailəsi dağılıb. Hər dəfə də Türkiyənin bölgələrindən zəng edirlər, ona evlilik təklif olunur. O da tərəddüd edir və bəzən də zarafatla "bəlkə sizin bölgədən evlənim" deyir. Belə bir məqamda da mən dedim ki, bu dəfə də bizim bölgədən evlən, gör bəxtin necə gətirəcək. Çünki bizim qızlar ən gözəl həyat yoldaşıdır, hətta bizim zəmanəmizdə ərinin ayağını da yuyar. Mən deməmişdim ki, qızlarımız gəlib Mehmet Əli Ərbilin ayağını yusun. Dedim ki, öz ərinin ayağını yuyar. Məgər bu, təhqirdir?"

Amma tarix siyasətçilərin də ayaq yumasına şahidlik edib. 2010-cu ilin fevral ayında Filippində nazir seçkilərində namizəd olan rahib Eddie Villanueva xalqın dəstəyini qazanmaq üçün ilginc bir yoldan istifadə edib. Paytaxt Manilada bir tərəfdarının ayaqlarını yuyan Villanueva onu izləyən qələbəliyi də şoka salıb. Amma tarix göstərdi ki, filippinlilər ayaq yuyan nazirliyə namizədi o qədər də yüksək qiymətləndirmədi.

### Ayağınızı heç kimə yuduzdurmayın, bunun üçün xüsusi vannalar var

Amma müasir texnika və tibbin imkanları o qədər genişlənib ki, ayaq yuyan xüsusi vannalar, çəkələklər belə icad edilib. Axtarış zamanı hətta ayağı yuyub, masaj edən özəl vannaların belə satışda olduğunu öyrəndik. Belə vannaların qiyməti özəlliklərindən, xüsusi funksiyalarından asılı olaraq 100-150 manat arasındadır. Yəni texnika da insanların işini asanlaşdırıb. Ayağını hər gün yuduzdurmaq istəyən şəxs artıq bunu öz pulu hesabına da edə bilər.

**Amma qədim adətlərimizdə hətta evə qonaq gələn şəxsin ayaqlarını belə evin qızı, gəlini yuyur. Bu, qonağa ehtiramın əlamətlərindən biridir. Müasir günümüzdə bu ənənə qalmasa da, insanlar evinə qonaq gələn yaxın adamın ayaqqabısını silməklə ona olan hörmətlərini göstərməyə çalışırlar.**

❑ **Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT

Son səhifə

N 78 (6692) 15 aprel 2017



## Evlərindən oğurlanan qızıllar kanalizasiyadan çıxdı

Bursadakı bir ailənin evindən oğurlanan qızıllar qəribə üsulla tapılıb. Belə ki, valideynləri ilə birgə yaşayan gənc ailənin evindən bir həftə öncə dəyəri 15 min manata yaxın olan qızıllar oğurlanmışdı. Bir gün həyətdə oturan ana kanalizasiya qapağını qaldıranda orada nəyinsə işıq saçdığını görüb və bu barədə oğluna xəbər verib. Oğlu da kanalizasiyaya yaxınlaşan kimi "qızılları tapdıq" deyib. Oğurlanan qızıllar bir-bir kanalizasiyadan çıxıb: "Polisi çağırdıq. Polis araşdırmaya başlayıb. Amma bilmirik ki, bu hadisəni kim və niyə edib. Amma təxmin edirik ki, kimsə heyif çıxmaq üçün bunu edib. Kim olduğunu isə polis müəyyən edəcək".



## Evində pişik saxlayanlara intihar təhlükəsi var

İngiltərədə aparılan bir araşdırmaya görə, ildə 350 min ingilis intihar riski ilə üz-üzə gəlir. Araşdırma zamanı ev heyvanlarında meydana gələn və şizofreniyaya səbəb olan bir parazit evdə yaşayanlarla kontakta girir. Haberturk.com saytının xəbərinə görə, evində pişik olan şəxslər intihar riski ilə üz-üzə qalır. Çünki pişik bu parazitə daha tez yoluxur. Toksoplazma gondii adlı parazitə görə ortaya çıxa bilən ciddi xəstəliklər arasında psxoloji problemlər də yer alıb. Parazitlər təkcə pişikdən yox, yeyilən heyvan ətindən və tərəvəzlərdən də keçə bilir.

# 8 aylıq uşaq 17 kiloya çatıb



Hindistanın Pencap bölgəsində normal bir çəkidə dünyaya gələn Çahat Kumar adlı uşaq 8 ay ərzində 17 kiloya çatıb. 4 yaşındakı bir uşaqla eyni ağırlığq gələn Ç.Kumarın ailəsi də, həkimləri də durumdan xeyli narahatdılar. Amma tibbi araşdırma və analizlər uşağın niyə bu qədər sürətlə kökəldiyini müəyyənləşdirə bolımir. Kumarın anası Reena isə deyib ki, "Çahatdan öncə bir oğlan övladını doğum əsnasında itirib: "Qızımı da itirmək istəmirəm. Normal bir uşaqdan dörd dəfə çox yeyir. Yemək vermədiyimiz vaxt isə daim ağlayır. Ona yemək çatdıra bilmirik. Bu işin axırı necə olacaq, bilinmir".

# 92 yaşlı xəstəyə "seviram" dedi, 70 min dollarını aldı

Britaniyadakı The Palms Medical Centre adlı tibb müəssisəsindəki tibb bacısı görünməmiş dələduzluq edib. O, 92 yaşlı xəstəni inandırmağa çalışıb ki, ona vurulub və bunu "sübut etmək" üçün ona sinəsini göstərib. Bunun əvəzində isə varlı xəstədən böyük miqdarda pul alıb. Lenta.ru saytının xəbərinə görə, 55 yaşlı tibb bacısı Şeron Vayt Harrison etiraf edib ki, xəstənin kredit kartını alıb və istədiklərini alıb. Tibb bacısı daha çox şəxsi istifadəsi üçün əşyalar alıb ki, onların da sırasında iPad planşet olub. Britaniyalı xəstə polislərə bildirib ki, o, maddi problemləri olduğunu deyən tibb bacısına 70 min dollar verib. Daha sonra məlum olub ki, tibb bacısı ərdədir.

Tibb müəssisəsindən bildirilib ki, tibb bacısı artıq işdən çıxarılıb. Çünki bu, onun birinci dələduzluğu və yalançılığı deyil. Xəstənin ailəsi də bu vəziyyətdən narazıdır və tibb bacısının 92 yaşlı xəstədən aldığı pulları geri qaytarmasını tələb edir.





## Ərini yolun ortasında döydü - dərman pulu çatmadığı üçün

Türkiyənin Balıkəsir şəhərində ərinin əlindən hirslənən qadın onu küçənin ortasında döyüb. Hirsi bununla da soyumayan qadın əlinə keçirdiyi süpürgə ilə ərini üstünə düşüb. O anlar isə bir vətəndaş tərəfindən görüntülənib. Məlum olub ki, hadisəyə səbəb cütlüyün aptekə getməsi və aptekdə alacaqları dərmanlar üçün pullarının çatışmaması olub. Ərinin üstündən dərmanın pulu çıxmayınca qadın da hirslənib. İlk olaraq ərini aptekdən sürüyərək çıxaran qadın daha sonra ona yumruq zərbələri endirməyə başlayıb. İkinci mərhələdə isə ərini yerdən götürdüyü süpürgə ilə döyməyə davam edib. Aptekə taksi ilə gələn cütlüyü gözləyən sürücü isə vəziyyət kritik hala gəlincə hadisə yerindən uzaqlaşıb. Bir müddət sonra hirsli qadını yanındakı yaxını hadisə yerindən uzaqlaşdırıb. Arvadının qəzəbinə məruz qalan kişi isə onun arxasınca düşərək, oradan uzaqlaşıb.




**QOÇ** - Maddi problemlərinizin qabarmasından narahat olmayın. Çünki yaxın günlərdə bu istiqamətdə uğurlarınız artacaq. Konkret olaraq bu günsə yalnız görəcəyiniz işləri dəqiqləşdirməlisiniz.

**BUĞA** - Maliyyə baxımından düşərli gün olsa da, ümumi ovqatınızda gərginlik mümkündür. Lakin bu amil işgüzar sövdələşmələrdə və qərarlar qəbul etməkdə sizə mane olmayacaq.

**ƏKİZLƏR** - Ümumi məziyyətlərinə görə, uğurlu gün hesab etmək olar. Qarşılıqlı münasibətlərdə yaranmış müsbət çalarlar ovqatınızı xeyli yüksəldəcək. Yeni xəbər eşidəcəyiniz də mümkündür.

**XƏRÇƏNG** - Qəlbinizin məhəbbət guşəsinə baş vurmağınızı təvəqqe edən ulduzlar əsas gücünüzü sevgiyə yönəltməyi məsləhət görür. Dardüşüncəli insanlara əhəmiyyətsiz yanaşın. Gələcəyə ümidlə baxın.

**ŞİR** - Ulduzların düzümü ilk növbədə səhhətinizə fikir verməyi məsləhət görür. Bunun üçün öncə əsəblərinizi qorumalı, hər dedi-qoduya fikir verməməlisiniz. Əsas vaxtı evdə keçirin.

**QIZ** - Naharaqədərki müddətdə həmkarlarınızla müəyyən mübahisələriniz gözlənilir. Odur ki, özünüzü qalmaqallara istiqamətləndirməməlisiniz. Saat 16-dan sonra şəxsi işlərinizdə dönüş yarana bilər.

**TƏRƏZİ** - Saat 12-yə qədər hansısa ciddi işlərə girişməyin. Əks təqdirdə xoşagəlməz situasiyalarla rastlaşacaqsınız. Nahardan sonra nüfuzlu şəxslərlə görüşləriniz sizə səmərə verəcək.

**ƏQRƏB** - Yaxşı olar ki, əsas vaxtınızı ev şəraitində keçirəsiniz. Uzaq yola çıxmaq, riskli hərəkətlər etmək, yeni işlərə başlamaq məsləhət görülmür. Büdcənizdə isə artım gözlənilir.

**OXATAN** - Səhhətinizlə bağlı xırda problemləriniz gözlənilsə də, özünüzə diqqət yetirməklə bu kimi mənfi fəsadları aradan qaldıra bilərsiniz. Çalışın ki, gün ərzində ağır fiziki işlərə girişməyəsiniz.

**OĞLAQ** - Kollektiv gəzintilərə çıxmaq üçün əlverişli tarixdir. Buna əməl etməklə sürprizlərlə rastlaşacaqsınız. Günortadan sonra maraqlı situasiyaların iştirakçısına çevriləcəksiniz.

**SUTÖKƏN** - Qohumluq münasibətlərində səxavətli olmağınız məsləhət görülür. Hansısa şəxsi probleminizi qabartmaqdansa, daha bəşəri ideyalarla məşğul olun. Nəzərə alın ki, bu, sizə hədsiz savab qazandıra bilər.

**BALIQLAR** - Ailə-sevgi münasibətlərində vəziyyət tamamilə xeyrinizə cərəyan edəcək. Kənar təsirlərə aludə olmayın. Köməyə ehtiyac duyan yaxınlarınıza sədaqətliliyinizi göstərin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Soyunub maşının altına uzandı ki, kompensasiya alsın

Çinin Çjetsyan əyalətinin sakini soyunub və park vəziyyətində olan Mercedes maşının təkəri altına uzanıb. Bununla o, maşın sahibindən kompensasiya tələb etməyi planlaşdırırmış. Məlum olub ki, 31 yaşlı kişi sürücüdən pul almaq üçün yol polisini də işə cəlb edib. Şahidlərin sözlərinə görə, çinli kişi yolun ortasında soyunub və yerə uzanıb. Həmin vaxt maşın stop vəziyyətində olub. Amma kişi qəsdən elə uzanıb ki, guya onu maşın vurub. Maşının sahibəsi maşınına qayıdanda polis çağırıb. Hadisə yerinə gələn polislər bildiriblər ki, kişi bu hadisədən qısa müddət öncə türmədən çıxıb. Onu bənzər hərəkətinə görə həbs ediblərmiş. Dələduzu bu hərəkətinə görə necə cəzalandıracaqları bəlli deyil.

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.100